**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**MAGİSTİRATURA MƏRKƏZİ**

*Əlyazması hüququnda*

**Tağızadə Lalə Rəhman qızı**

**"Kostyumun obrazlı ifadəliyini formalaşdıran estetik faktorların tətbiqi" mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** **060321 – "Dizayn"**
**İxtisaslaşma:** **"Dizayn və texniki estetika"**

**Elmi rəhbər:** **Magistr proqramının rəhbəri:**
**s.ü.f.d.Məmmədova L.H.** **dos.Ağamalıyeva Y.Ç.**

**Kafedra müdiri: s.ü.f.d.Məmmədova L.H.**

**BAKI - 2018**

**MÜNDƏRİCAT**

**səh.**

**GİRİŞ**......................................................................................................3

**FƏSİL I. KOSTYUMUN FORMALAŞMASININ NƏZƏRİ METODOLOJİ ASPEKTLƏRİ VƏ TARİXİ İNKİŞAFI MƏRHƏLƏLƏRİ**

1.1. Kostyumun formalaşmasının tarixi və inkişafı mərhələləri..................................6

1.2. XIX əsrin müxtəlif dövrlərində Azərbaycan geyimlərinin əsas xüsusiyyətləri....10

1.3. Geyim mədəniyyətinin formalaşması və estetik xüsusiyyətlər...........................15

**FƏSİL II. KOSTYUMUN BƏDİİ KOMPOZİSİYASI**

2.1. Bədii mədəniyyətdə kostyumun obrazlı ifadəsi...................................................21

2.2. Kostyumda kompozisiya və harmoniya...............................................................26

2.3. Müasir dövrdə kostyumda dəb və obrazlı yanaşma............................................31

**FƏSİL III. KOSTYUMUN ESTETİK ƏSASLARI**

3.1. Kostyumun əsas tələbləri.....................................................................................36

3.2. Kostyumda estetik xüsusiyyətlər.........................................................................41

3.3. Kostyumun kompozisiyasında rəng çalarları və aksessuarlar.............................46

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**..................................................................................52

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**.................................................................55

**XÜLASƏ**...............................................................................................................58

**SUMMARY**...........................................................................................................59

**РЕЗЮМЕ**...............................................................................................................60

**ƏLAVƏLƏR**..........................................................................................................61

# GİRİŞ

**Mövzunun aktuallığı**. Moda və dəbli geyinmək müxtəlif dövrlərdə hər zaman sivilizasiyaların diqqət mərkəzində olmuşdur. Hələ qədim dövrlərə nəzər saldığımız zaman müxtəlif imperiyalar və sultanlıqların dövründə saraylarda yaşayayan kral və onların ailələri, zadəganlar və tacirlərin ailə üzvləri hər zaman öz geyim tərzləri ilə fərqlənmişdirlər. Bu baxımdan moda və dəbli geyinmək üçün seçimlərə və fərdiliklərə üstünlük verilmişdir.

Əlbətdə ki, geyim tərzləri insanların yaşadığı məkan və bu məkanda olan iqlim şərtləri, sosial vəziyyətdən hər zaman asılı olmuşdur. Bundan əlavə insanların dini və adət ənənələrə baxışları da geyim tərzinə təsir edən əsas faktorlardan sayılmışdır. Bununla yanaşı, xüsusilə qeyd etmək lazımdır ki, hər bir dövrdə geyim və ya kostyum onun quruluşu, istifadə edilmiş material, qrim ifadəsi və estetik görünüşü baxımdan fərqlilik təşkil edir. Burada digər bir məqam isə geyimi və ya kostyumu formalaşdıran şəxsin və ya dizaynerin öz baxışından da asılı olmuşdur.

Qədim dövrlərdə geyimlərin hazırlanması zamanı parçadan daha çox onun üzərində olan bəzək əşyaları diqqət çəkmişdir. Hətta bəzi tarixi mənbələrə nəzər salsaq varlı tacirlərin və fironların öldükləri zaman onlara aid bütün bəzək əşyaları və geyimlərini də özləri ilə dəfn etdiklərini görmək mümkündür. Burada əsas məqsəd sanki bu insanların öldükdən sonra da digər aləmdə də dəbli geyimlərdən istifadə edərək daha gözəl görünmələrini təmin etmək olmuşdur.

Müasir dövrdə də kostyum və geyim gözəl görünüşün əsasını təşkil edir. Bu baxımdan hər bir insanın geyim tərzi bəzən onun daxili aləmindən də xəbər vermiş olur. Hətta bəzi insanların fikirlərinə görə kostym gözəl geyim tərzi və geyimin simvolu da hesab edilə bilir. Texnologiyanın inkişaf etdiyi və yeni tərzlərin meydana çıxdığı müasir dövrdə də kostyumlara olan tələb və yanaşma da dəyişmişdir. Eyni zamanda geyimə olan tələbin dəyişməsi və başqa sözlə desək tələbin artması ona olan obrazlı ifadəni də dəyişmiş olur. Bu baxımdan kostyumun obrazlı formada dəyişməsi

özünü müxtəlif formalarda göstərə bilir ki, buna misal olaraq maskarad və yaxud karnaval kostyumlarını misal göstərmək mümkündür.

Orta əsarlərdən günümüzə qədər olan zaman kəsiyində kostyum ən çox tələb edilən geyim forması olaraq qalmışdır. Əlbətdə ki, buna təsir edən bir çox faktorlar var ki, bunlardan biri də məhz kostyumların daha ağır və ciddi tərz olması ilə bağlıdır. Bü gün müxtəlif geyim butiklərində və məşhur geyim dükanlarında müxtəlif formada müxtəlif dəb firmaları tərəfindən dizayn edilmiş kostyumlara rast gəlmək mümkündür. Bunların hər biri  estetik görünüşünə və materiallarına görə bir-birindən fərqlənirlər. Lakin, diqqət edilməli digər bir məqam isə kostyumlarda obrazlılıq və estetik ifadililiyin formalaşdırılmasıdır. Bu baxımdan təzə kostyumun insanların tərbiyəsinə və davranışına təsir edən faktor kimi qiymətləndirilir. Buna əgər biz bədii və ya obrazlı formada yanaşsaq deyə bilərik ki, kostyum fərdlərdə dünya görüşü və fərdi xüsusiyyətləri ortaya qoyan əsas vasitələrdən  biridir.

Qeyd olunları nəzərə alaraq, müasir dövrdə də kostyumun əsas geyim tərzi olması və bu tərzə olan tələbatı nəzərə alaraq, kostyumda obrazlı ifadəliliyi formalaşdıran estetik faktorların tətbiq edilməsi onu zənginləşdirən əsas amillərdən biri kimi hesab edilə bilər. Bu baxımdan mövzu araşdırılmaq üçün aktuallığını bu gün də saxlamaqdadır.

**Tədqiqatın predmet və obyekti.** Kostyum və kostyuma təsir edən estetik faktorların tətbiqinin öyrənilməsi tədqiqatın əsas predmetini təşkil edir. Tədqiqatın əsas obyekti kostyumdur.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi kostyumun obrazlı ifadəsini formalaşdıran estetik amillərin tətniqinin araşrırılmasıdır. Qeyd edilən məqsədlərə çatmaq və daha detallı təkliflər vermək üçün tədqiqat aşağıda göstərilən vəzifələri yerinə yetirmişdir:

- ✓ Kostyumun formalaşmasının  tarixi və inkişaf mərhələlərinə  nəzər salmaq;
- ✓ XIX əsrdə Azərbaycan geyimlərini araşdırmaq;
- ✓ Müxtəlif dövrlərdə geyim mədəniyyəti və estetikasının tədqiq edilməsi;
- ✓ Bədii mədəniyyətdə kostyumun obrazlı ifadəsini müəyyənləşdirmək;

- ✓ Kostyumda kompozisiya və harmoniya anlayışlarına açıqlıq gətirmək;
- ✓ Müasir dövrdə kostyumda dəb və obrazlı yanaşma:
- ✓ Kostyumun əsas tələblərini müəyyən etmək;
- ✓ Kostyumda estetik xüsusiyyətləri araşdırmaq;
- ✓ Kostyumun kompozisiyasında rəng çalarları və aksessuarların yerini təyin etmək.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində Respublikamızda fəaliyyət göstərən moda evlərində tikilən kostyumların estetik xüsusiyyətlərinə baxılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işinin nəzəri və praktiki məlumatlarından universitetlərin bakalavr səviyyəsində, eyni zamanda müxtəlif orta ixtisas təhsil və peşə təhsili müəssisələrində təhsil alan tələbələr tərəfindən məqalələrin, kurs işi, referat və fərdi işlərin yazılmasında istifadə oluna bilər. Bununla yanaşı, işdə əldə olunan nəticələrdən gələcəkdə müxtəlif dizaynerlər tərəfindən kostyumun hazırlanmasında tətbiq oluna bilər.

**Tədqiqatın informasiya bazası və işlənməsi metodları**. Tədqiqat işinin əsas məlumat mənbəyi kimi müxtəlif alimlər və tədqiqatçılar tərəfindən aparılmış araşdırmalar, internet saytları və kostyuma aid xarici və yerli ədəbiyyatın materiallarından ibarətdir. Tədqiqatda müxtəlif elmi-nəzəri metodlarla yanaşı müşahidə, təhlil, keyfiyyət təhlili kimi üsullardan istifadə olunmuşdur.

**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil və yarımfəsillərdən, nəticə və təkliflər bölməsindən, ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. KOSTYUMUN FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ VƏ TARİXİ İNKİŞAFI MƏRHƏLƏLƏRİ

## 1.1. Kostyumun formalaşmasının tarixi və inkişafı mərhələləri

Kostyum sözünün etimologiyasını araşdırdığımız zaman onun ilk dəfə Fransada işlədildiyini görmək mümkündür. Lakin sonralar bu ifadə digər dillərdə də eyni formada işlədilməyə başlamışdır. Rusiyada da eyni mənada işlədilən kostyum ifadəsi ilk dəfə XVII əsrdə petrovski islahatları həyata keçirildiyi vaxtdan sonra daha çox ifadə edilməyə başlanılmışdır. Həmin dövrdə bu mənada işlədilən kostyum sözü daha çox tərz, dəb və yaxud geyimin forması kimi xarakterizə edilirdi.

Qədim misir tarixinə nəzər saldığımız zaman, Nil ətrafında olan ərazilərdə hava və iqlim şəraitinin kəskin isti olduğu üçün ilkin dövrlərdə kostyumdan daha çox kişilərin xüsusilə də dövlət qulluğunda çalışan kişilərin geyindiyi məlum olmuşdur. Bu dövrdə kostyumlar daha primitiv formada başqa sözlə desək dar və zolaqlı kəmər formasında ornametləri olan sadə kəsimlərdən istifadə edərək hazırlanırdı.Dövlət qulluğunda olan və daha varlı misirlilər bu kəmərlərin üzərində bahalı daş-qaşları olan xüsusi zinət əşyalarından istifadə edərək hazırlanan kostyumlara üstünlük verirdilər. Lakin daha kasıb təbəqədən olan insanlar bir kəmər və bir önlükdən istifadə edilən kostyumlardan geyim kimi istifadə edirdilər. Bu geyimlərdə kəmər kimi istifadə edilən ornament bərk və toxunmuş qamışdan hazırlanırdı. Lakin daha sonrakı dövrlərdə önlük kimi istidafə edilən hissə apronla əvəz olunmağa başlanılmışdır. Qədim və yeni krallığın dövründə artıq apron əsas və bütün misirdə xarakterik geyim tərzinə çevrilmişdir.

Qədim misirdə kişilərlə yanaşı qadınların da geyim tərzində kostyum xüsusi bir anlama malik idi.Qədim misirdə qadınların geyindiyi kostyum forması əsasən sinənin altından başlayaraq kəmər hissəyə dayanan və ayaq biləkli bir formaya malik geyim forması idi. Lakin daha sonra bu formada da müəyyən dəyişikliklər olmuş və qədim misir tarixini əks etdirən şəkillərə baxdığımız zaman bunu açıq şəkildə görmək mümkündür. [49]. Daha sonralar qadınların geyimlərində sinə hissəsini mühafizə

edilməsi üçün xüsusi parçalardan istifadə edərək qapalı formada kostyumların istifadəsinə başlanılmışdır.

Qədim İsrail xalqı da öz geyim tərzələri ilə fərqlənmişdirlər. İbranı kişilərin geyimləri müxtəlif uzunluqlu, bir kəmərli və düzbucaqlı bir papaq və qollu və ya qolsuz olan köynəkdən ibarət idi. Daha sonra bu geyim tərzinin üzərinə üstdən geyinilən əlavə bir geyim və yaxud paltar əlavə edilmişdir. Eyni zamanda baş geyimlərinə əlavə olaraq şapkalardan istifadə edilmişdir. [50]

Assuriya krallığının süqutundan sonra Babillilərin və daha sonra farsların nəzarətinə keçən Nineva şəhəri qədim geyim tərzlərinə görə fərqlənirdi. Bundan sonra bu ərazilərdə fars tayfaları yaşamağa başlamışdır. Bu tayfalar Dəclə çayının şərq sahillərindən Hindistana və Qafqazdan fars körfəzinə qədər uzanırdı. Bu ərazilərin geyim tərzi farsların geyimlərində təzahür etmişdir. Fars kişilərinin geyimlərini müxtəlif qaynaqlardan olan məlumatlar əsasında müqayisə edilməsi mümkün olsa da qadınların geyim tərzi haqqında informasiyalar çox məhdud olmuşdur. Bəzi mənbələrdə fars kişilərinin hətta müəyyən dövrlərdə kosmetik vasitələrdən də istifadə etdikləri göstərilmişdir. Hətta kralların özlərinin də palma şərabından, zəfərandan hazırlanmış xüsusi kosmetik yağlardan istifadə etdiyi göstərilmişdir. Qədim fars kişiləri qısa formada olan köynək, orta uzunluqlu şalvar və şişburunlu ayaqqbı olan geyimlərə daha çox üstünlük verirdilər. Eyni zamanda bu geyim tərzində dəridən hazırlanmış papaqlardan da geniş istifadə olunurdu. [22]

Müasir dövrdə dəbli kostyum anlayışı qədim dövrlərdən daha fərqli formada təzahür edir. Bu gün kostyum terminindən danışarkən cəmiyyətin müxtəlif qrupları və bu qrupların nümayəndələrinin sosial statusları və bu sosial qrupların obrazları haqqında informasiyanı özündə daşıyan məfhum kimi başa düşülür.Buradan nəticə olaraq o qənaətə gəlmək mümkündür ki, müasir dövrdə kostyum anlayışı daha geniş anlamda başa düşülə bilir. Belə ki, kostyum özü geyimin bir formasına çevrilir, lakin geyim heç də həmişə kostyum kimi başa düşülmür.

Qeyd edilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, müasir təsəvvürlər geyim və kostyum anlayışlarını kifayət qədər yaxın olmasına baxmayaraq

bir birindən fərqləndirilir. Həm kostyum, həm də geyim anlayışları bir birinə bənzəmələri onların hər birinin paltara xarakterik mənaları ifadə etmələri ilə bağlıdır. Geyim tərəfdən təhlil etdiyimiz zaman paltar daha çox utilitar məna kəsb edir. Rus dilində ifadə edildikdə bu əsasən bir şeyin xarici mühitdən izolyasiyası kimi başa düşülə bilir. Sonrakı anlamda isə bu termin daha çox cəmiyyətin müxtəlif qruplarını xarakterizə edən və bu qrupların adət ənənələrini izləyən məişət ənənəsi anlamında başa düşülür.

Paltarın yuxarıda qeyd etdiyimiz hər iki mənasının təkamül prosesi olmuşdur. Müxtəlif dövrlərdə geyim-paltar öz formasına və təyinatına uyğun olaraq fərqli olmuşdur. Yuxarıda da qeyd etdiyimiz kimi geyim hələ ilkin dövrlərdə insanları atmosferin müxtəlif təsirlərindən qoruyan və insaların bədənləri üçün xüsusi bir süni örtük funksiyasında olan bir məfhum kimi meydana çıxmışdır. Geyimdən danışarkən bu yalnız əsas kostyum və yaxud bədən hissələrini örtən mənasında deyil, eyni zamanda papaq, corab və yaxud da əlcək kimi aksesuarları özündə birləşdirən geniş anlamda başa düşülən bir termin kimi xarakterizə edilir.

Geyimin xaraketrik xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, ibtidai cəmiyyətlərdə geyim yalnız insanları müxtəlif atmosfer təhlükələrindən qoruyan vasitə kimi başa düşülürdü. İlkin geyim formaları daha çox müxtəlif heyvan dərilərindən və yaxud bədənin müxtəlif hissələrini örtən kötük və ya böyük yarpaq və yaxud otlardan olan geyimlər başa düşülürdü. Daha sonralar geyimlər insanların peşələrini, mülki vəziyyətlərini, o cümlədən xarakterlərini ifadə edən vasitəyə çevrilmişdir. Artıq zaman keçdikdə geyim müxtəlif obrazları ifadə etmək üçün vasitəyə çevrilməyə başlamışdır. Bu qayda ilə artıq geyimin müxtəlif obrazları yamsılama üçün bir vasitəyə çevrilməsi prosesi başlamışdır. Buradan qeyd etmək olar ki, artıq insanların və ya başqa sözlər desək şəxslərin fərdi xüsusiyyətlərini əks etdirən kostyum anlayışı yaranmağa başlamışdır. [42]

Kostyum yalnız geyim formasında deyil hətta müyyən dövrlərdə incəsənət əsəri kimi də dəyərləndirilmişdir. Məhz onun bu formada xarakterize edilməsi incəsənətin digər sahələri ilə vəhdət təşkil etməsini şərtləndirmişdir. Bu baxımdan incəsənət

sferasında bədii stillərin dəyişməsi kostyumun da tarixi inkişafında müəyyən dövrlər keçməsinə səbəb olmuşdur.

Kostyumun ilkin intibah dövrü Qərbi Avropada on iki - on dördüncü əsrə təsadüf edən qotika stili ilə başlamışdır. Daha sonra bu stil borokko stili ilə davam etmişdir. Bu stilin qotikadan əsas fərqli cəhəti isə burada kostyumun daha dəbdəbəli olması və konkretliyin olmaması, o cümlədən qəliz formada hazırlnması olmuşdur. Həmin dövrdən sonra kostyumun yeni bir forması və yaxud stili olan rokoko stili meydana gəlmişdir. Tarixi inkişafın feodal quruluşundan burjuasziyaya keçid isə bu stillərin klassizm ilə əvəzlənməsini şərtləndirmişdir.

Daha sonralar xüsusilə 19-ci əsrin əvvələrində artıq yeni bor stilin yaranması zərurəti meyada çıxmışdır. Belə ki, ampir stilinin ortaya çıxması məhz bu amillərin nəticəsində baş vermişdir. Bu stilin klassizm stilindən ən fərqli cəhətlərindən biri daha parıltılı və təmtəraqlı olmasıdır.  Lakin 19-cu əsrin ikinci yarısından başlayaraq yenidən rokoko stilinə müraciət edilmiş və bu dövr ikinci rokoko stili kimi yadda qalmışdır. Lakin 20-ci əsrdən başlayaraq geyimlərdə dəb və stillər müəyyən dəyişikliklərə məruz qalmışdır. Belə ki, artıq daha ciddi və ampir stillər öz yerini daha yumuşaq və sərbəst geyimlərə vermişdir. [13,17]

Müasir dövrdə də geyimin insanların xarici görünümündə xüsusi fərdiliklər yaratdığını nəzərə alaraq, kostym və yaxud geyimin estetikası vacib məsələdir. Bu baxımdan geyimlərdə estetik tələblərin gözlənilməsi müasir stil və yaxud dəbin zəruri faktoru olaraq qalır. Lakin qeyd etmək lazımdır ki, estetika modelyerin yaxud stilistin zövqünə və peşəkarlığına görə dəyişik formalarda təzahür edir. Çünki hər bir insanın gözəllik və dəb haqqında fikirləri əlbətdə ki, müxtəlifdir. Bu səbəbdən geyimlərin estetikasına təsir edən əsas amillər kimi modanı və üslubu misal göstərmək mümkündür.

Qeyd edək ki, müasir dövrdə bir çox geyim üslublarında dəyişikliklrin baş verməsinə baxmayaraq klassik stilin müəyyən çalarları hələ də qalmaqdadır. Buna misal olaraq monarxiya quruluşlu ölkələrdə bir çox rəsmi ziyafətlər zamanı ölkədə olan kral ailəsinin üzvləri iri klassik şlyapalardan istifadə edirlər. Bu gün də bu

geyimlərin istifadəsində çox ciddi tələbləri olduğu məlumdur. Xüsusilə qeyd etmək lazımdır ki, bu cür geyimlərdə bayağılıqdan və parlaq üslublardan maksimal istifadə qadağan edilmişdir [12,19].

Lakin qeyd etmək lazımdır ki, daha işgüzar və ciddi geyimlərin tətbiqinə ikinci dünya müharibəsindən sonra başlanılşışdır.

Respublikamızda da milli geyimlər və ya kostyumlar XX əsrin əvvəlllərindən daha çox dəyişməyə başlamışdır. Həmin dövrə qədər xüsusilə kişi geyimləri daha çox Qafqazda yaşayan xalqların geyimləri bənzəyirdi. Bu dövrdən sonra daha ciddi geyimlərə üstünlük verildi və artıq kostyumdan istifadə zərurət halına keçmişdir. Artıq şəhər əhalisi arasında avropa meyilli kostyumlara üstünlük verilir və bu stilə maraq artmağa başlamışdır. Burada avropasayağı şalvarlardan istifadə ilə yanaşı Qərbin ayaqqabı modası da xüsusi yer tuturdu.

## 1.2. XIX əsrin müxtəlif dövrlərində Azərbaycan geyimlərinin əsas xüsusiyyətləri

Respublikamız öz zəngin tarixi keşmişi ilə daim müxtəlif tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Hələ qədim dövrlərdən başlayaraq ilkin dövlət quruculuğu illərindən Azərbaycan maddi mədəni irsin formalaşdırılması baxımından fərqənmişdir. Qafqaz xalqlarında geyim tərzi xüsusi ornamentləri ilə daim fərqlilik yaradırdi. Bu xüsusiyyətlərinə görə milli geyimlərimiz zənginliyi ilə hər zaman fərqlənmişdir. İstər xanlıqlar dövrü istərsə də sonrakı illərdə həm qadınların həm kişilərin geyimş üslubları müxtəlif atributlarla zəngin olmuşdur.

Qeyd edək ki, qədim dövr Azərbaycan geyimlərini araşdırarkən Qobustan ərazisində daş kitabələrə həkk olunmuş şəkillər eyni zamanda arxeloji qazıntılar zamanı rast gəlinən müxtəlif  əsyalar və geyim ləvazimatları həmin dövr ilkin insan geyimləri və yaşayış tərzləri haqqında məlumat verir.

Araşdırmalar göstərir ki, həmin dövrdə yaşayan insanlarda geyinmlər və müxtəlif akssesuar istifadəyə meyilli olmuşdurlar və bu həvəs onların qayaüstü rəsmlərində və həmin dövrə aid tapıntılarda öz əksini tapmışdır.

Uzun illər keçməsinə baxmayaraq geyimin və ya insanların geyinməyə məcbur edən vacib amillər kimi bioloji dini motivlərə dayanan eyni zamanda daha gözəl görsənməni misal göstərmək mümkündür. Bu xüsusiyyətlər digər dövrlərdə olduğu kimi XIX əsrdədə öz aktuallığını saxlamışdır.

XIX əsrdə respublikamızda mövcud olan əsas geyim tərzlərində ipək parçadan istifadə geniş yayılmışdır. Bu isə bölgədə ipək istehsalının geniş vüsət almasıla əlaqəli idi. Lakin bu heç də pambıq və yun materiallardan istifadəni məhdudlaşdırmırdı. Bu formada materiallar daha çox Naxçıvan bölgəsində istifadə edilirdi. Sözü gedən dövrdə Azərbaycanda istehsal olunan müxtəlif materiallardan hazırlanmış parçaların nəinki, daxili istifadə hətta ixrac üçündə nəzərdə tutulurdu. Bu isə öz növbəsində milli ruhda hazırlanmış geyimlərin digər ölkələrə yayılması demək idi. Həmin dövrdə Azərbaycanda istehsal olunaraq xaricə ixrac edilən parçalara əsasən ipək, məxmər, atlas və digər növ parçalar aid edilirdi.

XXI əsr geyimlərində insanların daha çox geyimin içərisində özünü daha rahat hiss etmə ikinci planda göstəriş isə ön planda nəzərdə tutulurdu. Bu dövr geyimlərində rənglər xüsusi önəm daşıyırdı. Yuxarıda da qeyd etdiyimiz kimi göstərişin önəmliliyi nəzərə alınaraq rənglər xüsusi əhəmiyyətə malik idi. Bununla yanaşı, geyimlərə uyğun zinət əşyalarından istifadə də həmin dövrün geyim motivlərindən hesab olunurdu. Tamamlayıcı geyim ornamentləri olaraq ayaqqabılar və ya başmaqları misal göstərmək mümkündür. Bu əsr milli geyimlərindən danışarkən əsas iki geyim növü fərqləndirilirdi. Burada əsas diqqət bel geyimləri və çiyin geyimlərinə verilirdi. Çiyin geyimləri bel geyimlərilə müqayisədə öz sadəliyi ilə fərqləndirilirdi buna görədə bel geyimləri daha mürəkkəb struktura malikdir.

XIX əsr qadın kostyumlarından geniş istifadə olunan növlərdən biridə uzun libas kimi sayılan çəpkəni misal göstərmək olar. Çəpkənlər ipəkdən və yaxud da ki, məxmər parçadan hazırlanırdı. Bundan başka çəpkənlərlə yanaşı arxalıq da əsas geyim tərzi kimi istifadə olunmuşdur. Bu dövr arxalıqları daha çox insan bədəninin kürək nahiyəsini örtür lakin ön hissədən yaxalıq tərəfi açıq olaraq qalırdı. Arxalıqlar region və şəhərlərə görə fərqlənirdi. Məhz bu baxımdan Bakıda istifadə olunan arxalıqlar öz sadəliyi və gözəliyi ilə fərqlənirdi. Bu arxalıqların digər bir xüsusiyyəti isə onların qollarına tikilən parçanın düzbucaqlı formasında olması idi.

Yuxarıda qeyd etdiyimiz kimi geyimlər şəhərlərə görə bir-birindən fərqlənirdi. Şəki zonasında xüsusilə qadın paltarları tərzinə görə fərqlənirdi. Şəkidə yaşayan qadınlar ləbbadən və ətəklərdən geniş istifadə edilirdi. Bu dövrdə Şəkidi yaşayan qadınlar uzun ətəklər və qısa ləbbadədən istifadə edirdilər.

XIX əsrdə Şamaxı, Lənkəran, İrəvan kimi bölgələrdədə eyni geyimlərin müxtəlif formalarından istifadə olunurdu. Şamaxı ərazisində qadın geyimlərinin daha çox Bakı ilə eyni tərzdə olduğu halda Lənkəran bölgəsində xüsusilə qadınların geyimlərin üzərindən özünəməxsus şarfların bağlanmasıla fərqlənirdilər. Bu dövrdə geyimlərlə yanaşı bəzək aksessuarlarından da geniş istifadə olunurdu. Xanımlar saç yığımlarında daha çox kətandan hazırlanmış xüsusi parçadan istifadə edirdilər. Eyni zamanda müxtəlif dövrlərin baş örtüsü aksessuarı kimi istifadə olunan kəlağayıdan və qızıl çəngəllərdən istifadə olunurdu.

Sözü gedən dövrdə baş örtüsü kimi istifadə olunan şallarla yanaşı araqçınlardan da istifadə geniş yayılmışdır.

Qeyd edək ki, bu əsrdə Azərbaycanda yerli istehsal edilən parçalardan hazırlanmış geyimlərlə yanaşı, Avropa və rusiyadan hazırlanaraq gətirilən geyimlər də üstünlük təşkil edirdi. Hətta bu dövrdə yerli tələbatı nəzərə alaraq məşhur Azərbaycan tacirləri tərəfindən pambıq istehsal edən müəssisələrin yaradılmasına

başlanılmışdır.

Bu səbəbdən də  XIX əsrin geyimlərində qapalılıq və uzun formada ətəklər öz aktuallığını saxlasa da Avropa və Rusiya dəblərinin müəyyən ornamentləri geyimləri daha da zənginləşdirmişdir. Bununla yanaşı paltarlarla bərabər ayaqqabı və digər aksesuarlar da öz stilinə görə dövrün tələblərinə cavab verməyə başlamışdır. Bu nəinki özünü varlı təbəqənin geyim tərzində, hətta orta və kasıb təbəqədən olan insanların geyimlərində göstərməyə başlamışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda həmin dövrdə geyimlərdə göstərişlilik amili qabarıq formada əks olunduğu üçün rəngli parçalardan istifadə çox aktual idi. Köynəklər daha cavan yaşda olan insanlar üçün daha rəngarəng mavi, yaşıl və qırmızı rəngdə hazırlandığı təqdirdə, yaşlı kateqoriyadan olan insanlarda isə daha tünd rənglərdən istifadə olunurdu. Bununla yanaşı qadınların geniş istifadə etdiyi qadın tumanları da əsasən 3 formada hazırlanırdı. Burada alt tumandan, orta tumandan və üst tumandan istifadə olunurdu.  Bundan əlavə xanımlar üçün hazırlanan bu tip geyimlər həm gündəlik istifadə üçün, həm də daha dəbdəbəli ziyafət və toylar üçün hazırlanırdı.

Qeyd etmək lazımdır ki, həmin dövrdə azərbaycanda geyimlərin tikilməsində istifadə edilən parçaların basqıları da müxtəlifliyi ilə seçilirdi. Parçalarda istifadə edilən basqılara daha çox hər hansı təsvirlər istifadə edilən parçalar və yaxud hər hansı motidən istifadə edilərək hazırlanan təsvirləri aid etmək mümkündür.

Bundan başqa sözügedən dövrdə Azərbaycan geyimlərinə Avropa və Rusiya geyimlərinin qarışması ölkədə o vaxtın dili ilə adlandırılan “DON” geyiminin ortaya çıxmasına səbəb olmuşdur. Həmin dövrdə donlardan istifadə geniş vüsət aldığından onun istiehsalında müəyyən stimul yaranmışdır.

Bununla yanaşı XIX əsrdə Azərbaycanda kişi geyimləri də öz dəb və ornamentlərinə görə fərqlənirdi. Kişilər geyimlərində əsas aksesuar kimi incə

formaya malik kəmərlərdən, eyni zamanda müxtəlif materiallardan (qızıl, gümüş və digərləri) istifadə edilərək hazırlanan kəmər bəzəklərindən istifadə edirdilər. Kəmərlərlə yanaşı istifadə edilən kişi ayaqqabıları da əhəmiyyətli idi. Həmin dövrdə kişilər daha çox başmaqlardan istifadə edirdilər.

Bundan əlavə sözügedən dövrdə kişi geyimlərinə xüsusilə kostyum formasında olan geyimlərdə əsasən məişət təyinatlı və ziyafət formalı olanlar fərləndirilirdi. Kostyumlar isə öz növbəsində ikili və yaxud da başqa sözlə desək üçlü formlara malik olurdular.

Qeyd etmək lazımdır ki, əvvəlki dövrlədə mövcud olan geyim tərzləri həmin dövrdə də müəyyən dərəcədə qorunub saxlanılmışdır. Lakin sonralar, daha dəqiq desək XIX əsrdən başlayaraq artıq müasir geyim tərzlərinə meyillilik qədim tərzlərin yavaş- yavaş sıradan çıxmasına səbəb olmağa başlamışdır. Bu isə öz növbəsində artıq qədim ənənələrə dayanaq geyim tərzlərinin artıq zamanla unudulmasına və yalnız muzeylərdən izləməyə səbəb olmuşdur.

Xüsusi ilə qeyd etmək lazımdır ki, XIX əsrin geyimləri üslub baxımından özündən əvvəlki illərin geyimləri ilə çox fərlənmirdi. Lakin bu dövrdə Avropa və Rusiya dəbinin müəyyən çalarlarından istifadə geyimlərin daha da tərz formada istehsal olunması ilə nəticələnmişdir. Bəzi tədqiqatçılar bunun müsbət tərəfləri olduğu ilə yanaşı mənfi tərəflərinin də olduğunu qeyd etmişlər. Burada müsbət tərəf kimi dəbin daxil olması ilə geyimlərin təkmilləşdirilməsi olduğu halda, mənfi tərəflər kimi isə milli ornamentlərin itirilməsi olmuşdur.

### 1.3. Geyim mədəniyyətinin formalaşması və estetik xüsusiyyətlər

Müasir dövr geyim tərzlərini araşdırdığımız zaman kostyumun və digər geyim formalarının hazırlanması zamanı müasir standartlarla yanaşı qədim ornamentlərdən və folklor nümunələrindən istifadə edildiyini görmək mümkündür.

Geyim mədəniyyətinin formalaşması XX əsrin 2 ci rübündən başlayaraq geniş vüsət almışdır. Bir çox alimlərin araşdırmalarına nəzər saldığımız zaman bu mədəniyyətin formalaşmasında zövq faktorunun xüsusi rol oynamasını görmək mümkündür. İngilis alimləri Hariet və Vetta Goldstein "İncəsənət" əsərində geyim və dekorativ sənətləri diqqət mərkəzində saxlamışdır. Alimlərin araşdırmalarında qeyd edildiyi kimi rəng toxuculuq xətt və forma dizayn elementləri nisbət və harmoniya kimi prinsiplər geyimin hazırlanmasında əsas amillər kimi nəzərə alınmalıdır.

Geyimlərin formalaşdırılması zamanı məhsulun layihələndirilməsi və istehsal edilməsi və onun bazar seqmentinin seçilməsi estetik baxımdan nəzərə alınmalıdır. Təcrübəli dizaynerlər uğur qazanmaq üçün ilk öncə uyğun auditoriya və ya bazarı seçməyi bacarmalıdır. Amma istehlakçının estetika baxımından seçimlərini anlamaq üçün onların zövqünə uyğun məhsullardan istifadə edərək geyimlərin hazırlanması vacibdir. Estetik davranışı başa düşməklə məhsulun mədəniyyətə və fərdin yaxud qrupun dəyərlərinə olan kritik yanaşmasını daha yaxşı başa düşmək mümkündür. Estetikanı anlamaq vacib məsələdir çünki estetik baxımdan tələblərə cavab verməyən məhsul və ya geyim çox az bazar payına malik olacaqdır.

Estetika dəyərin anlaşılmasına güclü təsir edir. Bəyəndiyimiz bir geyim tərzi estetik baxımdan zövqümüzə oxşayırsa ona mütləq bir sual veririk. Nə gözəl hazırlanıb? Və yaxud sual vermədən təəccübümüzü gizlədə bilmirik. Lakin əgər hazırlanmış geyim və yaxud kostyum estetik baxımdan zövqsüzlüklə işlənibsə bu insanda böyük təəssüf hissi yaradır.

1970 və 1980-ci illərdə geyimlərdə daha çox dekolte və açıq-saçıqlıq ortaya çıxmağa başlamışdır. Bununla yanaşı, artıq fərdilik və yaxud insanın şəxsi tərzinin formalaşması başlamışdır. Meri Kefgen və Phyllis Touchie geyim tərzlərində fərdi

estetikanın rolunu xüsusi qiymətləndirmişlər. Bu baxımdan həm dizayner həm sifarişçinin baxışlarının üst-üstə düşməsinin və bundan yaranan birliyin vacib olduğunun vurğulamışdılar. Merlin Horn və digər yazıçılar özünü ifadə etməkdə geyim tərzinin və estetikanın xüsusi rolu olduğunu öz əsərlərində qeyd etmişdirlər.

Geyim estetikası XVIII əsrin sonları və XIX əsrin əvvələrində müasir geyim tərzlərinin meydana gəlməsi üçün əsas amillərdən hesab edilirdi. Lakin bəzi halarda estetika geyimlərin klassik formalarını dəbdən saldığı üçün ona modaya təhlükə kimi baxırdılar.

Qədim geyim tarixində estetika cəmiyyətin daha savadlı və ali kateqoriyası arasında daha geniş yayılmışdır. Bu tendensiya orta sinifə daha gec çatmış buda incəsənədlə məşğul olan daha savadlı insanlara şamil olmuşdur. Estetik geyimlər daha çox  yun ipək və vilvet parçalara aid edilirdi.

XIX əsrin sonlarinda Artur Lasenby Liberti Böyük Britaniyada Şərq üslublu fars geyimlərinin estetikasında istifadə etməyə başlamışdır. Artur Liberti geyimlərində daha çox şərq üslubundan istifadə etməyə başlamışdır. O 1875-ci ildə Londonun mərkəzi küçələrinin  Regents səmtində şərq ölkələrində istehsal edilən yumşaq ipək və digər yumşaq şərq parçalarından istifadə edilən dükan açmışdır. Burada satılan geyimlər  üzərində əllə həkk edilmiş naxışlar və üzərində estetik xalatlar görmək mümkün idi.

XIX əsrdə Böyük Britaniyada kişi estetikası dedikdə ilk nəzərdə Oskar Vilde nəzərdə tutulurdu. O, hər zaman dəbli geyimləri ilə estetika hərəkatının nümunəsi hesab edilirdi. O, əsasən vilvet jaketlər böyük və uçuşan qalstuklar və briclərdən geniş istifadə edirdi. Oskar Vilde hesab edirdi ki klassik stilli və praktiki türk şalvarları qadın və kişi geyimlərində geniş istifadə edilməlidir.

Yuxarıda qeyd edildiyi kimi geyimlərdə insanların diqqət etdiklərindən biri məhz geyimin əyində daha rahat otura bilməsidir. Bu amil cəlbediciliyi və özünə gevəni daha da artırırdı. Geyim dizaynı dedikdə daha genış anlayış başa düşülməyinə baxmayaraq bu peşəni ” kostyum dizayn”ıda adlandırmaq mümkündür.geyim dizaynerlərindən danışarkən onların funksiyalarına rəssam modelyerlik estetikanı

yaradan təşkilatı tərəf eyni zamanda konstrukturlar kimi də qiymətləndirmək olar.Onlar sanki həmin geyimin psixoloquna rejissoruna çevrilirlər. [13 20]

İnsan cəmiyyətin yarandığı gündən incəsənət insani dəyərlərin təbliğində mühüm yer tutmuşdur. İncəsənət  mədəniyyətin müxtəlif sferalarına siraət etmişdir. Burada istər musiqi istər teatr sözügedən sahənin plastikasını özündə birləşdirmişdir. Bu baxımdan kostyumun da layihələndirilməsi və dizaynı arxitektonik bir istiqaməti müəyyən edir. Burada kostyumun həm estetikası həm də praktik funksiyaları özündə birləşdirir.

Müxtəlif tarixi inkişaf dövrlərində kostyumlar cəmiyyətin müxtəlif qruplarının gündəlik məişət davranışlarını özündə birləşdirirdi. Kostyumlar və digər geyim tərzləri insanların xarakterləri və milli mənsubiyyətləri haqqında fikir formalaşdırmağa imkan verirdi. Cəmiyyətdə gedən tərəqqi insanların düşüncə tərzinin dəyişməsi və kamilləşməsi geyimlərində dəyişiminə səbəb olmuşdur.

Geyim və estetika üzrə bir çox araşdırmaları olan Con Molli biznes qarderobu vasitəsilə bir qadının özünü  ən yaxşı necə təqdim edəcəyi haqqında geniş bir məqalə yazmışdır. Yazar bu əsərində uğur üçün geyim məsələsini araşdırmanın əsas mərkəzi elementi kimi qələmə vermişdir.  Daha sonra başqa bir araşdırmada Karoli Cakson öz zövqü ilə müxtəlif rənglərdən istifadə etməklə estetik görünümlü geyinməyin imkanlarından yazmışdır. Məzmun estetik işlərdə çox vacib məqamlardan biridir. Lakin burada müddətin və tərzin müəyyən ediləsi vacib məqamlardandır. Ümmumillikdə moda dedikdə müəyyən müddətdə hər hansı bir məzmun ifadəsində bir fərdin üzərində daşıdığı bir əşya və yaxud geyim hesab edilir.

Moda həmçinin mövcud texnalogiya mədəni hadisələr və ya dizayner yaradıcılığını paltar məhsulları ilə əlaqələndirəcək yenilikləri nəzərdə tutur. Modaya uyğun gəlmək estetikanın qiymətləndirmə meyarı hesab edilə bilər. Geyimin forması bədəni və ya vücudu dəyişdirmək və bunu müxtəlif rənglər ornamentlər və naxışlar vasitəsilə kompleks bir formada həyata keçirmək kimi başa düşülə bilər.( Delonk 1998)  Formaya qoşulma yalnız geyim səthinin detallarına deyil siluet və düymələrin şəklinə və ya qol və yaxa kəsimlərini təşkil edən xətlərə də aiddir.

Kostyum və geyim estetikası dedikdə insanlar fərqli formalarda buna münasibət bildirirlər. Bəziləri üçün geyim və ya kostyum sadəcə gündəlik məişət zəminində üzərimizdə daşıdığımız bir vasitə kimi başa düşürlər.

Bəzi insanlar isə bunu sadəcə bir estetik məqsədlərə xidmət edən vasitə kimi izah edirlər. Lakin qeyd etmək lazımdır ki, müxtəlif yaş kateqoriyasında olan insanlar üçün geyim və onun estetikası fərqli formada yorumlana bilər. Əgər biz hər hansı uşağa geyim haqqında sual versək və hansı geyimləri seçməsini istəsək bu zaman onların daha çox rəngarəng formalara ustünlük verdiklərini görə bilərik. Bu isə onu deməyə imkan verir ki, daha cavan yaş qrupları estetik baxımdan rəngli və dəbli geyimlərə üstünlük verirlər. Buna görə də geyim və tərz haqqında məlumatları hələ uşaq yaşlarında uşaqlara öyrətmək lazımdır.

Bundan başqa geyimlərin insan cəmiyyətinin yarandığı gündən onlar arasında ünsiyyətdə də mühim amil olduğu bəzi tədqiqatlar sübut etmişdir. Bəzən bu ünsiyyət onların cazibədar görünmələri zamanı daha səmimi və uzunmüddətli olmağa səbəb olur.

Bu baxımdan geyimlər insanların fərdiliyini və xarakterini sübut etmək üçün istifadə edilən vasitə kimi də baxmaq mümkündür. Burada geyimlərlə bərabər əlbəttə ki, geyim üzərində olan ornamentlər və fərqli aksessuarlar da xüsusi əhəmiyyətə malikdir. Başqa sözlə desək geyimlərdə olan müxtlif ornamentlər geyim və kostyumlara xüsusi orijinallıq və fərqlilik gətirir.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın inkişaf etməsi və innavasiya və sənaye inqliabı bütün sahələr təsir göstərdiyi kimi, Avropada və dünyada geyim sənayesinə təsirsiz ötüşmədi. Yeni imkanlar və yeni şərait əlbətdə ki, zövq faktoru geyim və dəbin yeni formalarının yaranmasına şərait yaratmışdır. Bu amillər XX əsrin geyim sənayesində yeni meyillərin yaranmasına səbəb olmuş və moda sənayesinin zənginləşməsinə səbəb olmuşdur. Artıq bundan sonra yeni iqtisadi şərait və dünyada baş verən inkişaf meyilləri geyimin də hər gün yenilənməsini şərtləndirmişdir.

Qeyd etmək lazımdır ki, geyimlərin estetik xüsusiyyətlərinə nəzər saldığımız zaman geyimlərdə olan estetik tələblərin geyimlərə verilən təyinatlarla sıx bağlı

olduğunu müəyyən etmək mümkündür. Başqa sözlə desək, kostyum və yaxud hər hansı bir geyimin tərtibatı onun istismar və digər təyinat formasına təsir edən əsas faktorlardan biri kimi qiymətləndirilir. Buna misal olaraq qeyd etmək olar ki, əgər geyim rəqqas üçün yaxud çilingər üçün hazırlanırsa o zaman onların fərqli estetik xüsusiyyətləri olacaqdır. Burada əsas fərqliliklərdən biri də bu geyimlərin məhz fərqli məqsədlər üçün hazırlanması və fərqli materiallardan istifadə edilməsidir.

Bundan başqa qeyd etmək lazımdır ki, estetetikanı təhlil etdiyimiz zaman diqqət ediləsi digər bir məqam estetik reaksiya məsələsidir. Estetik reaksiya geyimin ilk görünüşü zamanı ətrafdakı insanların ilkin təssüratları kimi də başa düşülə bilər. Estetik reaksiya alimlərin fikirlərinə görə elm və sənət arasında bir intizam kimi də başa düşülə bilər.

Məşhur alim və tədqiqatçı Tomas Munor (1956) estetikanı təhlil edərək rasionallaşdırmış və bir elm kimi formalaşdırılmasına töhvə vermişdir. Estetik reaksiyanı ölçmək və yaxud anlamaq estetik nüanslarını başa düşməyin başqa bir üsuludur.

Bununla yanaşı estetikada stil inglis alimi və marketing mütəxəssisi olan Paul Nyustrom tərəfindən xarakterik ifadə üsulu olaraq təyin edilmişdir. Bundan başqa tədqiqatçı ən yaxşı nəticələr üçün stil terminini estetik baxımdan müxtəlif şəkillərdə istifadə edilməsini təklif etmişdir. Araşdırmada stil olaraq görülən insanlara ilkin reaksiyaların hansı formada olması təhlil edilmişdir. Burada “Bu şəxs çox dəbli geyinir”, “ Bu adam stilə malikdir”, Dizaynerin üslubu yumuşaq və incədir” kimi ifadələrin səsləndiyini vurğulamışdır. Burada stil və üslub ilk növbədə ekspozisiya kimi istifadə olunur, eyni zamanda ifadəli xarakteristikalara istinad edir.

Bundan əlavə qeyd etmək lazımdır ki, müasir dövrdə də klassik formalar istinad estetik baxımdan bir sıra mənalar ifadə edir. Birincisi klassik stil hər zaman tanınan və müraciət edilən və riski çox az olan stildir. Ikincisi klassik stikə müraciət etməklə paltar ansablının bədən ilə optimal əlaqəsini yaradan bir geyimə istinad edildiyi müəyyən olunur. Məsələn klassik xəndək palto üçün istifadə edilən bir termindir.

Qeyd edək ki, yuxarıda yazılanlardan da göründüyü kimi geyim və kostyumun dizaynında esttetikanın rolu xüsusi əhəmiyyətə malikdir. Bu özünü həm bütün geyim tərzlərində və formalarında qabarıq frmada göstərir. Müasir üslublu geyim tərzləri və kostyumlar əlbətdə ki, moda sənayesinin inkişafı ilə daha da təkmilləşmiş və rəqabətli dizaynerlərin və geyimlərin meydana gəlməsinə səbəb olmuşdur.

# II FƏSİL. KOSTYUMUN BƏDİİ KOMPOZİSİYASI

## 2.1. Bədii mədəniyyətdə kostymun obrazlı ifadəsi

Geyimin tarixini və estetikasını araşdırdığımız zaman qədim dövrlərdə kostyumun əsas funksiyasının istilik və qorumanı təmin etdiyini görmək mümkündür. Bir çox alimlər inanırdılar ki ilkin hazırlanan geyimlər və bəzək əşyaları yalnız dini və ritual məqsədlər üçün hazırlanmışdır. Paltarın digər funksiyası isə onu geyinənin cinsi,  yaşı və digər xüsusiyyətləri barədə məlumat verməkdən ibarət idi. Geyimin bu formada xarakterizə edilməsi və bu fikirlərin hansı formada yayılması alimləri düşündürən əsas məsələlərdəndir. Bir şəxsi geyimlə müəyyən edən xüsusiyyətlər məkana və zamana görə dəyişə bilir. Bir dövrdə gözəl və cazibədar görünən geyimlər başka bir dövrdə çox çirkin bir formada görünə bilər. Əlbəttə ki burada mədəniyyətlər arası fərq anlayışınıda geyimə təsir edən əsas amil kimi göstərmək olar. Belə olan halda ortaya maraqlı sual çıxır. İnsanlar geyimləri köhnəlmədən niyə dəyişdirirlər. Başka sözlə desək paltardan fərqli olaraq niyə moda mövcuddur.

Təbii ki belə suallara sadə cavab tapmaq çox çətindir. Lakin alimlər öz araşdırmalarında və nəzəriyyələrində modanın kaptalizm və müasir sosial iqtisadi siniflərin inkişafı ilə birlikdə təşəkkül tapdığı qeyd edilmişdir. Beləliklə Asiyanın bir çox yerlərində olduğu kimi orta əsrlərdə Avropa mədəniyyətinin yayılmasına qədər siniflər arasında hərəkət edən məhdud statik cəmiyyətlərdə üslub və stil dəyişikliklərə məruz qalmamışdır. Əksinə alt siniflər üst sinifləri təkrarlayaraq tez-tez öz mövqeyini münayiş etdirən moda dəyişikliklərini ortaya qoyurdu. XX əsrdən başlayaraq təkmilləşdirilmış istehsal texnalogiyaları və müasir ünsiyyət yeni modellərin elitdən kütlələrə qədər sürətlə inkişafına imkan verdi və bunun nəticəsində modanın dəyişməsi və obrazların formalaşması sürətləndi. [50]

Bundan əlavə modanın zənginlik və nüfuzu əks etdirməsi fikri kostyum tarixində bir çox üslubların populyarlığını izah etmək üçün istifade edilirdi. Buna misal olaraq kral kortları qərbdə qorunmaq üçün bahalı olan vasitə kimi qiymətləndirilirdi. Rufslar hər gün isti ütü tələb edən geyim olduğu üçün kasıb təbəqə

tərəfindən çoxda istifadə olunmurdu. Bu tip geyimlər qulluğu sevdiyi üçün daha az müraciət olunan kateqoriyalar hesab edilirdi. Bu səbədən parça və materiallar daha bahalı və nadir olduğu üçün daha ekstrovaqand və dəbli insanlar istifadə edirdilər.

Qeyd etmək lazımdır ki, qeyri-praktik moda göstərdi ki, geyinən insan işləməyə ehtiyac duymur. O, daha çox nümayiş xarakterli hesab edilir. Qədim çin kotyumlarında belə ornamentlərin mövcudluğu məhz qeyri-praktik geyimlərə nümunədir. Avropada korsetlər yalnız aristokrat xanımlar deyil həm də işçi sinif qadınlar geyinirdi. XIX əsrdə Avropa qadınlarının istifadə etdiyi qeyri-praktik geyimlər xanımların işləməyə maneə yaratması onların həyat yoldaşları və ailə başçıları tərəfindən qulluqçuların tutulması ilə nəticələnirdi.

Sözügedən dövrdə qeyri-praktik geyim nümunələrindən qadınlarla yanaşı kişilərdə istifadə edirdi. Bu geyim tərzlərinə nümunə olaraq həddən artıq böyük qalstuk uzun və buruqlu pariki göstərmək mümkündür. Təbii ki qadınlar kimi kişilərdə bu tip qeyri-praktik geyimlərdə rahat iş görmələri və hərəkət etmələri çətinləşirdi.

Qədim svilizasiyalara nəzər saldığımız zaman müxtəlif xalqların mədəniyyətlərində fərqli geyim stillərini görmək mümkündür. Vikinglər Hindular dəniz və meşə ərazilərində isti iqlimdə yaşadıqları üçün çox az parçadan istifadə edilən geyimlərə üstünlük verirdilər. Bundan əlavə bəzi cəmiyyətlərdə fərdlərin müəyyən yaş həddinə çatmayana qədər geyim tərzlərində dəyişiklik etmələrinə icazə verilmirdi. Yalnız yaş həddini tamamlamış insanlar müxtəlif bəzək əşyalarından istifadə edirdilər ki, bu da insanın xarakterinə uyğun görünməsini təmin edirdi.

XX əsrdən başlayaraq sənaye inqlabları sosial-iqtisadi inkişaf mədəniyyətlərin inkişafı incənətlə bağlı fikir və düşüncələrin dəyişməsini şərtləndirmişdir. Bu dəyişikliklər və elmi-texniki inqlab bədii mədəniyyətədə təsirsiz ötüşməmişdir. Lakin qeyd etmək lazımdır ki incəsənətin müxtəlif növləri arasında əlaqələrin pozulması tək və yaxud vahid bir stilin ortaya çıxması daha da güclənməyə başlamışdır.

Elmi müzakirələr göstərirki moda həm fikir və ideyaların birliyi həm də material bir obyekt kimi müzakirə edilə bilər. Moda qədim mədəniyyətlərdədə olduğu kimi iki

fərli yanaşmanı öyrənməyi əsas obyekt kimi seçmişdir. Bunlardan birincisi geyim kostyum və moda nəzəriyyəsinin öyrənilməsi digəri isə moda araşdırmalarının aparılmasıdır. Qeyd edək ki müasir dövrdə bu araşdırmalara marketinq tədqiqatları adınıda vermək mümkündür. Yuxarıda qeyd etdiyimiz iki istiqamətə üçüncüsünü də əlavə etmək mümkündür. Bu modanın maddi-mədəniyyəti istiqamətidir.

1980-ci ildən başlayaraq moda tarixində yeni bir dalğa əmələ gəldi. Bu modanın araşdırılması və tədqiqat məsələlərində deduktiv metodların tətbiqi nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki burada modanın araşdırılması zamanı yalnız geyimlə bağlı elm sahəsi deyil sosiologiya antropologiya entrologiya axreologiya sahələrinədə toxunulurdu. Bu tədqiqatlar zamanı müxtəlif dövrlərdə müxtəlif cəmiyyətlərdə və mədəniyyətlərdə geyim formalarının təhlili aparılırdı. Araşdırmalar göstərir ki moda nəinkı gündəlik istifadə də olan geyimləri hətta mədəniyyətin müxtəlif sferalarına inteqrasiya edərək öz obrazlı ifadəsini üzə çıxarmağa başlamışdır.

XIX əsrin ikinci yarısından başlayaraq yüksək strukturlaşdırılmış və ağır bəzəkli viktoriya meyillərini özündə daşıyan səhnə geyimləri meydana çıcmışdır. Bu istiqamət 1850 ci illərin başlanğıcında Böyük Britaniyada Pre-Rafeellitlər və geyim islahatları hərakatları kimi cərəyanların təsirindən yaranmışdır.

Bu dövrdə orta əsr üslublarından istifadə edərək uzun ətəkli xalatlara daha çox müracıet edilirdi. Bu üslublar həmin dövr rəssamlarının yaratdığı əsərlərdə də öz əksini tapmışdır. Rəssamların əsərlərinə nəzər yetirdiyimiz zaman geyimlərin və yaxud paltarların geniş və nisbətən düz və şişmiş qollar ilə əks olunduğunu görmək mümkündür. Burada təbii materallardan hazırlanan rənglərdən də geniş istifadə olunurdu. Bu dövr paltarlarında dövrün uslubunda görülən sərt korsetlər çubuq ıtıklət və luks bəzəklər öz əksini tapmışdır.

1860-cı ildə bədii paltarlar intelektual dairələrdə və sənətkarlar arasında çox geniş yayılmışdır. Bu həm keyfiyyətlə materiallardan hazırlanan əl işlərinə və orta əsr dizaynının təməlinin gücləndirilməsinə böyük təkan vermişdir. Sənətkarlar və artistlər arasında geniş yayılmış geyim formaları bir neçə müddət sonra müxtəlif yüksək səviyyəli ziyafətlərdə zadəgan xanımları tərəfindən geyinilməyə başlanmışdır.

1880-1890 cı illərin estetik geyimi estetikçiliyin mənəvi və sosial məqsədlərini inkar etməsinə baxmayaraq artistlik səhnə paltarların bir çox xüsusiyyətləri bu məqsədləri özündə daşıyırdı. Bu dövrün geyim estetikası zərif incəsənəti tərənnüm edirdi.

XIX əsri digər əsrlərlə müqayisə etdiyimiz zaman bu dövrdə yadda qalan xüsusi bir obrazın formalaşdığını demək çətindir. Kapitalizmin yaranması və bununla bərabər əmək tutumlu sahələrin və məhsuldar qüvvələrin inkişafı texnika vı texnalogiyadan istifadənin genişlənməsi kostyum və geyimdə də yenilənmə və dəyişmə gətirib çıxarmışdır. Bəzi araşdırmalara baxdığımız zaman şəhərsalma mmemarlıq və arxitektura sahəsində sement məhlulundan  betondan istifadə və demirə paralel olaraq poladın meydana çıxması və bununla yanaşı geyim istehsalında əllə və indevidual tikilişdən çıxaraq maşınla istehsal artıq geyimlərin kütləvi surətdə istehsal olunmasına gətirib çıxarmışdır. Bu isə öz növbəsində innovativ və yaxud sənaye üsulu ilə ərsəyə gələn geyinmlərdə yeni estetik formalar yaratmağa səbəb olmuşdur.

XX əsr memarlığı Avropada yeni stillərin və yanaşmaların meydana gəlməsini şərtləndirmişdir.Bu dövr abidələrində işlənilən zərif memarlıq üslubları yeni dizayn formalarını meydana çıxarmışdır. Bu dəyişmələr incəsənət və mədəniyyət haqqında köhnə fikirləri geridə qoymuş və geyim tərzlərinədə təsirsiz ötüşməmişdir. Sözü gedən dövrdə fransız modelyerlərin işlərində şərq üslubundan müxtəlif ornamentlər istifadə edilirdi. Bununla yanaşı artıq geyimlərdə idman üslubunun tətbiqinə də başlanmışdır. Bu dövrdə insanlar boş vaxtlarınnda müxtəlif ölkələrə səfər edir və beləliklə turizm meydana çıxmağa baçlamışdır. Bu isə öz növbəsində dağ turizmi velosiped idmanı olpinizm üzgüçülük kimi sahələrin meydana çıxmasına səbəb olmuşdur. Əlbəttə ki, bu sahələrin hər biri özünəməxsus geyim formasının yaranmasını şərtləndirir. Bu tip kostyumların istehsalı isə yeni dizayn və dizaynerlərin yaranmasına və inkişafına səbəb olmuşdur.

XX əsrdə baş vermiş dəyişikliklər kostyum və geyimin formalaşması və inkişafınada zəmin yaratmışdır. Bu dövrün yadda qalan əsas hadisələrindən biri isə qadın geyimlərində çeşidlərin artması olmuşdur. Bu dövrlərdə qadın geyim

tərzlərində Tunis forması üstünlük təşkil etmişdir. Bu geyim formasına xas olan əsas xüsusiyyətlər müxtəlif formalı sülietlər düz kəsimlər və uzunluqdur. Eyni zamanda dövrün tələblərinə uyğun olaraq yeni formalar və üslublarda meydana çıxırdı və buda öz növbəsində kostyumun bədii ifadəliliyinə təsir göstərirdi. Başka sözlə desək siluetin zamanla dəyişməsi baş verirdi. Başka bir dəyişiklik isə geyimin bəzən enli formada bəzən isə bədənə yapışan formada olması idi.

XX əsr modelyerləri öz əsərlərində və yaxud yaradıcılığında müxtəlif növ təbiət ornomentlərindən şərq üslublarından istifadə etməyə maraqlı idilər. Bu dövrün digər bir dəyişikliyi isə müxtəlif peşə sahələri ilə məşğul olan xanımların daha rahat hərəkət etmələrini təmin edən enli və idman stilli geyimlərin istehsalının geniş vüsət alması olmuşdur. XIX əsrin sonlarından başlayaraq yeni geyim forması olan enli və kloş formada olan yubka məşhurlaşmağa başlamışdır. Bununla yanaşı qolları uzun olan jıqolar da əsas istifadə edilən geyim tərzlərindən idi.

XIX əsrin sonları XX əsrin əvvəllərində yeni idman stili və fantazi tərzlə yanaşı klassik üslubda öz məhşurluğunu saxlayırdı. Bu üslub öz ənənəvi başka sözlə desək ciddiyətini qoruyaraq öz harmoniyasını saxlayırdı. Bu üslubda daha tünd rənglərdən və sərt parçalardan istifadə olunurdu. Bundan fərqli olaraq idman üslubda hazırlanan geyimlərdə daha boş və enli üslublara üstünlük verilir bu isə öz növbəsində aktiv hərkətliliyin təmin olunmasına şərait yaradırdı. Bu dövrün digər bir stili olan fantazi üslubunda geyimlər daha çox dizaynerin öz təxəyyülünə əsaslanır qeyri-standart xətlər və tikiş formaları ilə fərqlənirdi.

Tarixi kostyumlar və geyim tərzləri yuxarıda da qeyd etdiyimiz kimi bir çox Avropa rəssamlarının bədii əsərlərində öz əksini tapmışdır. XV əsrin İtalyan stili öz çeşıdlılıyı ilə digər avropa geyimlərindən daha öndə idi. Bu forma özünü istər saç stillərində istərsə də istifadə olunan aksessuarlarda da göstərirdi.1460-cı ildə çəkilmiş Hollandiyalı rəssam Rogier Van Der Veydenə aid bir qadının şəkli əsərində eyni zamanda 1488 ci ildə çəkilmiş İtaliyalı rəssam Dominiko Girlandaio “Covanni Tornoboani” tablosunda bu fərqlilikləri görmək mümkündür. Bu şəkilləri təhlil etdiyimiz zaman İtaliyada saç stillərinin sərbəst və təbii olmasını müşahidə edərkən

Şimali Avropada bu daha qabarıq şəkildə üstən yığılmış saç və fatadan istifadə edildiyi aydın şəkildə görünür.

Geyim tərzləri arasında fərqli formalar  məhşur rəssam Albert Dürerin Nürinberqli evdar qadın və Vennetsiyalı qadın əsərində də görünməkdədir.imaldan olan qadının geyim tərzində qollar tamamilə dar və bədənə yapışan formada İtaliyan üslubunda geyinən Venetsiyali qadın isə qolların çölə doğru çirkin formada olduğu və müxtəlif bəzək əşyalarından istifadə edilərək dekorasiya edildiyini görmək mümkündür. Buradan görünür ki Şimali Avropada geyim üslubunda daha çox örtülü tərz istifadə olunurdu. Rəssamın çəkdiyi şəkildə hər iki qadının paltarlarındakı dekolte hissə bir-birinə çox bənziyir. Bunun əsas səbəbi isə Dürrerin qısa müddət italiyada yaşadiqdan sonra Nürinberqə köçməsilə əlaqələndirilir.

Qeyd etmək lazımdır ki, Şimali Avropada geyim tərzlərinin İtaliya ilə müqayisədə daha zəif olması İtaliyan tacirləri  ipək yolu vasitəsilə Şərqdən xüsusilə Çində istehsal olunan bahalı parçaların dəniz yolu ilə Venetsiyaya gətirilməsi ilə bağlıdır.

## 2.2. Kostyumda kompozisiya və harmoniya

Geyim sözünün insanın müəyyən dönəmlərdə ətraf mühitin təsirlərindən qorunması və örtük anlamında istifadə edildiyi halda kostyumda bu yanaşma fərqlidir. Kostyum daha çox xüsusi tədbirlər və məkanlar üçün geyinilən forma başa düşülür. Geyim daha çox iqlim sağlamlıq və bu kimi sahələrdə baş verən dəyişikliklərə uyğunlaşdığı halda kostyumlar müxtəlif estetik dəyişimlər insanların sosial vəziyyəti dini baxışlarının dəyişməsi ilə meydana çıxmışdır.

Qədim dövrlərdən başlayaraq insanların fərqli görünmək istədiyi öz sosial statuslarını ərtafdakı insanlara göstərmək və özünü fərqli formalarda ifadə etmək üçün müxtəlif növdə kostyumlara ehtiyac yaranmış və beləliklə kostyum ticarəti genişlənməyə başlamışdır.

Müxtəlif elmi ədəbiyyatları araşdırdığımız zaman müxtəlif tarixi dövrlərdə kostyum və geyim məvhumunun ideyasının arxasında insan fiqusunun və obrazının dayandığını görmək mümkündür. İnsan fiqurları dedikdə burada uzun və ya bəstəboy arıq yaxud kök qadın və kişi uşaq və ya böyük kimi anlayışlar nəzərdə tutulur. Əlbəttə ki, hər bir insanın zövqünə və formasına uyğun olaraq kostyumlarda da hormoniya və kompozisiya inkişaf edirdi.

Hər dövrün öz tələblərinə uyğun olaraq kostyumların layihələndirilməsində ölçü formaları rənglər miqyas dəyişikliklərə məruz qalırdı. Başqa bir məqam isə dizaynerlərin harmoniyaya və gözəlliyə öz şəxsi yanaşmalarını əlavə etmələri idi. Harmoniya dedikdə müəyyən edilmiş dövrdə dəbin zövqün və mühitin kostyumla vəhdətinin göstərirdi.

Tarixi dövrlərdə harmoniya bəzən insanların şəxsiyyəti ilə vəhdət təşkil edirdi. Haroniyanı izah edərkən alimlər iki yanaşmanı təklif edir. Harmoniyaya geniş və dar mənada izah verilir. Geniş mənada harmoniya dedikdə konpozisiya haqqında bütün qanunların birləşdirilməsi və yaxud ümümilləşdirilməsidir.dar mənada harmoniya dedikdə isə burada kostyumla bağlı müxtəlif elementlərin qaydaların əlaqələndirilməsi kimi şərtləndirilir. Bu anlamda qeyd etmək olar ki, harmoniya dəb tərz və geyimin bütünləşməsini və bunun əsasında obrazlı ifadəni yaradan əsas anlayışdır.

15-ci əsrin başlanğıcında Fransa və İngiltərənin geyimlərində alman ornamentləri əks olunmağa başlanmışdır. Fransız alimi Lukas Kranıçın canlandırdığı zadəgan və onun həyat yoldaşı adlandırdığı rəsm əsərində şeytan pəncəsi adlandırılan yarım ay formasında olan bəzək paltarın bütün hissələrində istifadə olunurdu.Bu forma harmoniyanın tamamlanması üçün almanlar tərəfindən daha qabarıq şəkildə istifadə olunurdu. Şalvarlar ayaqqabılar və digər aksessuarlarda da bu detallara rast gəlmək mümkün idi. Qadın geyimlərində də kostyumun bədən hissəsində və ətəklərində istifadə olunmaöa başlansada zövq baxımdan uğur əldə etməmiş və onun istifadəsi dayandırılmışdır. Qeyd edək ki, Qədim dövr təhliləri göstərir ki kostyum və geyimdə harmoniyanın və kompozisiyanın qorunması əsas çərtlərdən olmuşdur. Bu

yanaşma nəinki, bir fərdin geyimində hətta ər və arvadın geyimlərinin bir-birini tamamlanmasında özünü biruzə verirdi.

Harmoniya anlayışı müxtəlif cərəyanlar və alimlər tərəfindən fərqli formalarda izah edilir. Bu izahatların bəziləri harmoniyanı harmonik normalar formasında açıqlamışdır. Bu harmonik formalarıbn ısasında formalaşmız 3 kanon dövrümüzə qədər gəlib çatmışdır. Bunlardan birincisi 3min illik tarixə malik Hind Tibet kanonu ikincisi qədim tarixi inkişaf mərhələləri olan misir kanonu və sonuncusu qızıl bölgülər kanonudur. Bu kanon növünə məhşur rəssam Leonardə da vinçinin də adı verilmişdir. [14, 51]

Harmoniya anlayışına digər bir yanaşmani məhşur alim K.Marks vermişdir .alimin yanaşmasına əsasən harmoniyanı təhlil edərkən 3 əsas anlayışı əlaqələndirmək lazımdır. [10]

- Ölçü
- Tamlıq
- Proporsionallıq

Alim qeyd edirdi ki, harmoniyanı izah etmək üçün bu 3 yanaşmanın vəhdəti və koordinasiyası vacib məsələlərdəndir. Bu baxımdan Yunanlarda ölçünü harmoniya ilə sıx əlaqələndirir və onun say ifadəsindədə xarakterizə edirdilər. Bu yanaşmanın əsasında isə say harmoniyası elmi bir istiqamət kimi formalaşmış və Pifaqorun davamçılarının təlimlərində öz əksini tapmışdır. Qədim yunan kostyumlarında memarlıq üslubunun 3 yanaşması daha çocx inkişaf etmişdir.Bunlar aşağıdakı formalar idi. [19, 47]

- Dorik
- Ionik
- Korinf

Burada əsas yanaşma kostyumun hərəkətliliyə çox az təsir etməsi və geyimin ritminə riayət etməsini əsas şərt kimi götürürdü.

Əvvəlki bölmələrdən qeyd etdiyimiz kimi bəşəriyyətin yarandiğı ilkin vaxtlarda insan svillizasiyadan kənarda idi. İnsanlar öz bədənlərinin yarpaq və ağaç budaqları

ilə bədənlərini örtürdülər. Lakin zaman keçdikcə svilizasiya və mədənıyyət insanların həyatına təsir etməyə başladı. Bunun nəticəsi olaraq geyim həyatın ayrılmaz bir hissəsinə çevrildi. Bunun nəticəsidir ki, müasir cəmiyyətdə də insanı geyimsiz düşünmək mümkün deyil.

Geyim moda və ya üslub kimi dəyərləndirilir. Geniş formada şərh etsək bu sanki bir gedişdir.Ümumilikdə isə bu müasir günə uyğun kəsim və yaxud dərzi standartları kimi qiymətləndirilir. Müasir araşmalara və medianı izlədiyimiz zaman hər gün il ay yeni geyim üslublarının yarandığını müşahidə edirik. Başqa sözlə desək geyim sanki hər gün dəyişikliyə məruz qalır. Moda və onun harmoniyasi haqqında danışarkən Oskar Vildenın fikirləri yada düşür.Çirkin bir forma elə dözülməzdir ki biz hər altı ayda onu dəyişməliyik.( Evirtualgurucom) Başka sözlə desək, bu günün paltarları sabahın lağvasıdır. Lakin müasir rəqabətli cəmiyyət daha üstün seçimli və keyfiyyətli geyimlər axtarışındadır. Bu baxımdan geyimlərin estetikası və harmoniya müasir geyim üslublarında diqqət ediləsi vacib məqamlardandır.

Geyim tərzləri qısa müddət ərzində olduqca dinamik formada dəyişə bilir.Buna bariz nümunə kimi ən bəsit halda geyimlərin ilin dörd fəsilində dəyişdiyini görə bilərik. Əlbəttə ki, həyat sabit formalara malik deyil.İnsanların davranışları hərkətləri çox dinamikdi. İnsanların fikirləri və düşüncə tərzi çox sürətlə dəyişir. Statik insanlar məhz buna görədə dünyada baş verən dəyişikliklərə ayaq uydurmalıdır.Bu baxımdan müasir gənclik xüsisilə qadınlar və kişilər geyim tərzlərində dəyişən mühiti əks etdirillər. Sanki bu dəyişikliklər günün tələbini şərtləndirmiş olur. Bu baxımdan müasir modaya uyğunlaşmaq bütün təbəqələrdən olan insanların həyat tərzinə çevrilmışdir. Belə olan halda geyimdə harmoniya və estetika tez-tez dəyişilməsi ehtiyac olan əsas vaktora çevrilmişdir.

Müasir dövrdə geyimə daha böyük əhəmiyyət verilərək günün vacib elementinə çevrilmişdir. Hətta uzaq məsafədən baxdıqda gələn insanın oğlan və ya qız olmasını ayırd etmək çox çətindir. Xüsusilə gələn insan idman formasında görünürsə bu ayırd etməni bir azda çətinləşdiri. Çünki müasir dəbdə oğlan kəsimləri qızlar tərəfindən çox

bəyənilir.Və nəticə olaraq oğlan kəsimləri stilində hazırlanan pantalon və köynəkləri geyinən qızlar oğlan kimi görünürlər.

Kosmik səyahətlər edən dünya uzaqdan çox kiçik görsənir.Texnalogiyanın inkişafı dünyanın müxləlif bəlgələrində yaşayan insanları çox rahatlıqla bir araya gətirir.Bu isə öz növbəsində mədəniyyətlərin yaxınlaşmasına və fərqli geyim tərzlərinin digər ölkələrə ötürülməsinə şərait yaradır. Bunun nəticəsində də başka ölkənin vətəndaşları sanki bizim geyimdə görsənillər və beləcə geyim tərzlərinin başqa mədəniyyətlərə daşınması prosesi baş verir.

Bəzi alimlərin fikrinə görə dəyişikliklər təbiətin bir qanunudur. Bəzən qızlar bədənərini və öz bədən quruluşlarını ətrafdakı insanla göstərmək üçün çox sıx geyim tərzlərindən istifadə edirlər. Bəzən isə bunun əksi baş verir daha geniş geyim tərzlərindən istifadə edərək bədən quruluşlarını gizlətməyə çalışırlar. Ancaq heç kim inkar edə bilməz kiç müasir dövrdə demək olar ki hər bir insan modanın bir parçası olmağa nail olmuşdur. Hətta kəndlinin geyimində belə ciddilik və ağıllılıq görünüşünü görmək mümkündür. Heç bir şübhə ola bilməz ki, dəb qadınların cazibədarlığını artıran əsas faktor gedə bilir. Əgər bizim ulu babalarımız bu gün bizə baş çəkmək şansı olsaydı onlar hecvaxt bizi tanıya bilməzdilər.

Qeyd etmək lazımdır ki, müasir geyim tərzlərində müxtəlif dizaynerlərin müxtəlif yanaşmaları olduğu kimi təndiqçilərində yanaşmaları fərqlidir. Bəzilərinin fikrinə görə həddən artıq açıq-saçıq geyim tərzləri insanlarda vulqar görünüm yaradır. Bu isə öz növbəsində hərəkət məhdudiyyətlərinə səbəb olur. Sıx və dekoltəli geyimlər yalnız qısa ziyafətlər üçün aktuallığını saxlayır. Misal göstərmək olar ki, həddən artıq dar və sıx geyimdə bir şəxs avtobusa minmək üçün əlbəttə ki, əziyyət çəkəçək. Lakin daha geniç üslub bu çetinliyin aradan qalmasina həlledici rola malikdir. Bu onu deməyə imkan verir ki, insanlar geyim secimində məkan və zamana uyğun seşim etməlidirlər. Hətta bəzi hallarda geyimlərin seçimi zamanı parçanın keyfiyyətinə diqqətdə əsas şərtlərdəndir. Çünki belə geyimlər allergiya və dəri prabləmlərinə səbəb ola bilir. Lakin həddən artıq moda həvəskarı və dəbli geyinməyi sevən insan bəzən bu prablemlərə fikir vermədən bu geyimləri seçə bilirlər.

Qeyd edək ki, istər orta əsrlərdə istərsə də müasir cəmiyyətdə geyimin bir-birini tamamlaması və harmoniyanın uyğunlaşması daha göz oxşayan forma yaradırdı. Bu baxımdan dəb və stil müasir dövrdə insanların həyatında ayrılmaz bir hissəyə çevrilmişdir. Bu nəinki, gündəlik həyatda mədəniyyətlərarası sferada da özünü göstərməkdədir.

## 2.3. Müasir dövrdə kostyumda dəb və obrazlı yanaşma

Qədim dövr rəssamlıq nümunələrinə baxdığımız zaman bir çox rəssamların əsərlərində həmin dövrə xas olan ən-ənələrin və bədii nümunələrin təsvirlərdə əks etdirdiklərinin şahidi olmaq ümkündür. Ümumilikdə obrazlılqdan danışarkən xüsusilə qeyd etmək lazımdır ki, bu bir ideyanı yaxud fenomeni ortaya qoymaq üçün istifadə edilən hər hansl allerqorik və yaxud da metarforik bir anlayışdır. Burada isə metaforik fikirlər dedikdə bu daha çox incəsənətin bir sahəsi kimi dəyərləndirilə bilər və əlbətdə ki, burada bədii metafora daha qabarıq formada özünü göstərir. Bu özünü müxtəlif nümunələrdə göstərə bilir. Məsələn əgər bi qədim Misir sfinkslərinə nəzərə salsaq burada qədim rəssamların obrazlı formada olan düşüncə tərzlərinə real formada baxamaq mümkündür.

Bədii obrazlılıq öz kriteriləri ilə də fərlənir. Hər hansı bir çəkilmiş əsər və yaxud bir heykəltaraşlıq nümunəsi hər zaman obrazlı bir əsər sayılmır. Burada əsərin hər hansı bir obrazlı ifadəyə malik olması vacib məsələlərdəndir. Burada olan əsər və yaxud memarlıq nümunəsi o zaman bədii əsər hesab edilə bilir ki, onda obrazlı məzmun əks olsun. Bu ifadə istər rəsm əsəri, istər hər hansı bir rəssamlıq nümünəsi, isərsə də bir geyim forması olsun, yenə də burda obrazlı məzmunun olması çox vacib məsələdir.

Qeyd etmək lazımdır ki, obrazlılıq müxtəlif əsərlərdə və geyimlərdə əlbətdə ki, müxtəlifdir. Burada vahid yanaşmanın olması mümkün deyil, çünki hər bir insanın təsəvvürləri və baxış tərzləri müxtəlifdir. Lakin, qeyd etmək lazımdır ki, burada

rəssamlar və yaxud dizaynerkərin yaratdığı əsərlərdəki obrazlılıq böyük kütlə üçün nəzərdə tutulmalı və onların zövqünü oxşamalıdır.

Hər hansı bir əşyanın yaxud obyektin layhələndiriməsi zamanı layihəçinin və yaxud memarın sərbəst düşüncəsinin geniş olması onun daha füsünkar tərzlər yaratmasına imkan verir. Burada diqqət edilən əsas məqam isə ətrafda olan əşyaların canlandırılan əsərdə obrazlı ifadə etməklə onlara ruh vermək deyil, əksinə olaraq bu komponentlərdən istifadə edərək insanların yaşayışını ratatlatdıracaq bir atmosfer yaratmaqdan ibarətdir.

Qeyd etdiyimiz yanaşmalar əlbətdə ki, yalnız memarlıq və rəsm əsərlərinə aid deyil. Bu xüsusiyyətlər eyni zamanda kostumun layihələndirilməsi üçün də vacib mərhələlərdəndir. Lakin, burada diqqət edilən bir məqam isə geyimin çox dəbdəbəli və bahalı materiallardan hazırlanmasına baxmayaq insan üçün rahat olmaması onun dəyərinin azaldılmasına səbəb olmasıdır.

Bu o deməkdir ki, obrazlı ifadə eyni zamanda o geyimin və yaxud kostyumu daşıyan insanın rahatlığını nəzərə almalıdır. Rahatlıqdan danışarkən isə burda yalnız fiziki rahatlıq deyil eyni zamanda psixoloji rahatlıq da diqqətə alınmalıdır.

Bəzi tədqiqatlara nəzər saldığmız zaman, alimlər kostyum obrazlarını təhlil edərkən, müxtəlif yanaşmalar ortaya qoymuşdur. Onlar qeyd edirdi ki, tamaşaçı və yaxud ətrafda olan insanlar kostyumda olan aktyor yaxud insanın paltarını deyil eyni zamanda onun özünü başa düşməlidir. Belə ki, bu kostyumu daşıyan insanın rahat hərəkət etməsi və onun dinamikliyi üçün maneyə yaratmaması əsas şərt kimi qəbul edilir. Başqa sözlə desək, dizaynerlər kostyumları və ya paltarları layihələndirdikləri zaman daha çox diqqət mərkəzində bu geyimləri daşıyan fərdələri götürməkləri tövsiyə olunur.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, kostyumların və ümumilikdə geyimlərin layihələndirilməsi zamanı dizaynerlərin əsas və çətin öhdəliyi kimi obrazlı ifadənin tapılmasını göstərmək mümkündür. Burada modelyerlərin şəxsi imrivizasiyası ilə yanaşı onlarn dünya görüşü və xarici əlamdən ala biləcəkləri yaxşı təcrübələri tətbiq etmə bacarıqları əsas məsələdir.

Eyni zamanda, rəssam modelyerin ətrafdan ilham alması və bu ilhamdan yaranan ideyaları obrazlılıq formasında kostyumda əks etdirməsi də onun əsərinə təsir edən vacib məqam olaraq qalır. Bunun nəticəsidir ki, müxtəlif insanların və müxtəlif dizaynerlərin yaratıqları əsərlər öz orijinallığı, obrazlılığı və üslubu ilə bir birindən fərlqlənir.

Modelyer və dizaynerlərdə ilhamın yaranması və bunun nəticəsində yeni obrazlılığın verimləsi hər bir fərddə müxtəlifdir. Bəzi insanlarda bu emosiyaların yaranması güclü musiqi duyumu ilə, bəzilərində isə təbiət mənzərəsini seyr etməklə baş tutur. Bu isə öz nüvbəsində həmin rəssam dizaynerin öz firçsını və ya qələmini əlinə alaraq yeni ideyalar əsasında kostyum obrazları yaratmağa vadar edir.

Qeyd edək ki, kostyum və geyimdə obrazlı ifadəliliyə nail olmaq dizayner ve ya modelyerin ən vacib bacarığıdır. Bu obrazlı ifadənin alınması rəssam modelyerin təcrübəsi intellekti və ətraf aləmdən aldığı nüansları kostyum yaxud geyim formasına salmasıdır. Burada rəssamın şəxsi təxəyülü ilə yanaşı ərtafdakı insanların davranışları və müşahidələridə əhəmiyyətlidir.

Son dövrlər dəb sənayesi tamamilə gəlirlilik üzərinə mərkəzləşdirilmişdir.Və bunun nəticəsi olaraq keyfiyyət daha çox ikinci plana keçmişdir. Keyfiyyətlə geyim istehsal etmək ticarətçilər üçün əsas priolitet deyildir. Fokus məhsulun nə olduğunu göstərməkdən ibarətdir. Buna nail olmaq üçün böyük brend şirkətlər kostyuma əlavə olaraq ona aid bütün aksessuarları özləri istehsal etməkdə maraqlıdırlar və ayaqqabıdan tutmuş alt geyimlərinə qədər öz markalarını buraxmaq əsas hədəf olaraq seçilmişdir. Bunun nəticəsində məhsul və ya kostyum artıq diqqət mərkəzində deyildir. Artıq danışan markadır.

Gənc dizaynerlərin və yaxud müasir dəb modelyerlərinin istedadlarını yaymaq və geyim sənayesi ilə əlaqələndirmək üçün istifadə edilən yanaşma marketinqdir. Bu yeni ideyaları dəstəkləmək satışları artırmaq x y və ya z lüks markasını genişləndirmək üçün düşünülmüş bir stategiyadır. Bu baxımdanmüasir geyim sənayesində şirkətlər öz marketinq startegiyalarına uyğun bazar seqmetlərinin uyğunlaşdırmağı bacarırlar.

Bir sıra məhşur geyim firmalarının məhsullarını tətlil etdiyim zaman onlarin hər birinin istehsal etdiyi kostyularina nəzər saldiğimi zaman müxtəlik kəsik formalarını görmək mümkündür. Bu isə brendlər arası ferqi gəsterən əsas predmedlərdən biridir. Belə geyim firmalarına misal olaraq Armani, Canali, Kığılı, Ramsey kimi misal göstərmək olar. Bu firmaların brendlərində kəsim fərqliliyi ilə yanaşı rəng və parçalardakı fərqliliklərdə nəzərə çarpır.

XX əsrin 20-ci illərində kişilər daha çox qısa pencəyi olan kostyumlara üstünlük verirdilər. Lakin onlar müxtəlif rəsmi tədbirlərdə fraklardan daha geniş istifadə edirdilər. Kostyumun çizgilərinin yaranma tarixinə nəzər saldığımız zaman XIX formalaşmasına baxmayaraq onun dəbli vəzuiyyətə gəlməsi məhz 20-ci əsrdə baş vermişdir. Bu baxımdan bütün dövrlərədə kostyum cəmiyyətim müxtəlif təbəqələrində əsas geyim tərzi kimi istifadə edilmişdir.

Müasir dövrdə geyimin insanın xarici görünüşünu dəyişməsilə yanasi onun gündəlik fəaliyyətinədə təsiri vardır. Yaşam tərzi davranış stili yaşadığın ərazi, yediyin yemeyin növü və gündəlik aktiv fəalyyətlər geyim tərzinə uyğun dəyişə bilir. Uşaqlardan başlamış yaşlı insanlara qədər hər bir kəs bu gün moda təsirlərindən təsirlənə bilir.

Müxtəlif ölkələrdə geyim tərzlərinə təsir edən amillərdə əlbətdə ki,müxtəlifdir. Hindistanda modanın əsas mənbəyi heyrətamiz dünya, əyləncə və kino sənayesidir. Bunun nəticəsidir ki, moda dünyasında baş verən trendlər gəncləri bu sferada kariyera qurmağa həvəsləndirir. Bu gün modelyerlik və dizaynerlik bacarıq tələb etdiyi kimi təhsildə tələb edir. Buna görə də müxtəlif ölkələrdə bu sahəni öyrənmək üçün bakalavr magistratura və doktorantura səviyyəsində təhsil almaq mümkündür.

Respublikamızda da bir neçə moda evləri fəaliyyət göstərir. Bunlara misal olaraq Emiland, Elatus modalar evi, Nərgiz Camal moda evi, Fəxriyyə Xələfova moda mərkəzi gəstərmək olar.

Ölkəmizdə yaradılan ilkin modalar evi Emiland şirkətidir.Şirkət ölkəmizdə 1991ci ildən fəaliyyət göstərir.ilkin vaxtlarda şirkətin işçi heyəti çox az olmasına

baxmayaraq şirkət uğur qazanmağa nail olmuşdur. Qısa bir müddətdən sonra 70-dən çox heyəti olan böyük bir komandaya çevrilmişdir.

Bu gün Azərbaycan bazarında dəbli kostyumlar istehsal edən əsas şirkətlərdən hesab olunur. Müəssisənin istehsalında əsas yeri kişi geyimləri tutmasına baxmayaraq qadın geyimlərinində istehsalına yer verilir. Lakin qadın geyimləri olaraq daha çox ziyafət paltarları istehsal olunur.

Emiland'in atelyelərində kostyumla yanaşı ayrı-ayrılıqda kişi pencəkləri,şalvarlar, köynəklər müxtəlif ölkələrdən gətrilmiş keyfiyyətli parçalardan hazırlanır. Şirkətin müraciət etdiyi əsas xammal istehsalçıları Fransa, İtaliya və İspaniyadır.

Qeyd edək ki, Azərbaycan  bazarında fəaliyyət göstərən modalar evinə misal olaraq Elatus modalar evini göstərmək olar. Elatus modalar evində kişi geyimləri istehsalı geniş formadadır. Moda mərkəzi tərəfindən istifadə edilən parçalar Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Türkiyə, Dubay, Cin kimi ölkələrdən gətirilir. Modalar evində daha çoc klassik kişi kostyunları ziyafət geyimləri istehsal edilir.

# III FƏSİL.  KOSTYUMUN ESTETİK ƏSASLARI

## 3.1. Kostyumun əsas tələbləri

Müasir dövrdə geyim alarkən diqqət etdiyimiz əsas məqamlardan biri onun dizaynı ilə yanaşı keyfiyyətidir. Geyimlərdə keyfiyyət müxtəlif meyarlarla ölçülə bilir.Burada parçanın keyfiyyəti tikiş və ya kəsimin keyfiyyəti aksessuarların keyfiyyəti nəzərə alına bilir. Eyni zamanda əvvəlki bölçmələrdədə təhlil etdiyimiz kimi digər bir məsələ həmin geyimdə sərbəstlik və rahat hərəkət əsas tələblər sırasındadır. Geyimlərə olan tələblər onların keyfiyyətinə təsir edən əsas amildir.Bu baxımdan tələblərə xüsusi diqqət yetirmək lazımdır.tələblər material vəı qeyri material baxımından 2 formada insanlarıın ehtiyaclarını ödəyir. Material tələblərdən danışarkən burada əsas məsələ paltarın insan həyatı üçün əsas tələblərin ödənilməsinə xidmət edir. Başka sözlə desək daha çox örtünməni tələb edən geyimdir.Burada əsas məqam kostyum və yaxudda geyimin konstruksiyasıdır.Başka sözlə desək bəzən bu tələblərə utilitar tələblərdə adlanır.

Material tələblərdən fərqli olaraq qeyri-material tələblər daha çox estetik ideyalara əsaslanır. Qeyd etmək lazımdır ki, kostyuma qoyulan tələblər kişi və qadın geyimlərində fərqli formadadır. Qadın geyimlərində daha rəngarəngliyə üstünlük verildiyi halda kişi geyimlərində ciddilik hakimdir. Qadın geyimlərinə qoyulan tə ləblərindən danışarkən ziyafət və gündəlik geyimləri fərqləndirmək lazımdır. Belə ki, ziyafət geyimlərində diqqət edilən əsas məqam estetika olduğu halda gündəlik istifadə edilən geyimlərdə daha çox gigenik xüsusiyyətlər özünü biruzə verir.

Qadınların geyimlərindən danışarkən onların istehlak tələbləri müxtəlif qruplarda toplana bilər.Bu quruplaşdırmanı aşağıdaki formada görmək olar. [19]

- Erqonomik
- Etibarlılıq
- Estetik

Geyimlərin material tələblərindən danışarkən burada daha çox keyfiyyət məsələsi önəmlidir. Material tələblərdə parçanın keyfiyyəti liflərin strukturu

koloristik təşkil qaydası diqqət edilən əsas amillərdəndir. Erqonomik tələblərdən danışarkən daha çox əmək şəraiti və onun formalaşdırılması və təhlükəsinin iş şəsaitinin yaradılması diqqət edilən əsas məsələlərdəndir.

Geyim tələblərindən danışarkən müasir dövrdə diqqət edilən tələblər sırasında Dress code misal göstərmək olar. Dress code tarixinə baxdığımız zaman orta əsrlər Avropanın kral ailəsi və zadəganların muxtəlif zümrələrə məxsus olmasını göstərən geyim tərzi idi. Sakit və şimali qərb sahillərində yaşayan xalqlar sosial fərqlərini göstərmək ücün kölələr zadəganlar kəndlilər dress code-dan istifadə edirdilər. Daha sonralar dress kod sosial statusdan fərqli anlam daşımağa başladı. Artıq dress code insanların sosial statusu deyil iş ziyafət və digər tədbirlərdə görünüm formasına keçdi.

Qeyd etmək lazımdır ki, dresscode bəzən yazılmamiş qaydalar kimisə xarakterizə edilir.insanın fiziki görünüşünün digər tərəfləri kimi geyim ictimai bir əhəmiyyətə malikdir. Müxtəlif qayda və gözləntilər tətbiq olunaraq movcud vəziyyət görə deyisə bilir.Bir insan bəzən gün ərzində müxtəlif dresscode-larla cəmiyyət icərisində gorseme bilir. Məsələn idman uslubunda geyinərək dostlarla göüüs və yaxud smoking geyinərək axşam ziyafəti.

Müxtəlif cəmiyyətlərin və müxtəlif mədəniyyətlərin təbii olaraq müxtəlif geyim normaları vardır. Günümüzdə daha çox müraciət edilən geyim normalarında qərb stili üstünlük təşkil edir. Qərb stilindən danışarkən bu daha çox XIX əsrdə öz kökünü vəhsə qerb stilindən götürmüşdür. Qərb stilində geyimin müxtəlif formaları fərqlənirdi. Burada papaqlar köynəklər pencək və paltolar şalvarlar gödəkcələr ayaq geyimləri qərb üslubunda hazırlanırdı.

Qərb ölkələrində orta əsrlərdə papaqlardan geniş formada istifadə olunurdu.Bu dövrdə kavboy şapkalarından daha çox kənarları yuxarı formada qatlanmış şapkalardan istifadə olunurdu. Kavboy şapkaları 1870 ci ildən başlayaraq daha çox məhsur sapka kimi istifadə olunmağa başlanmışdır.

Qərb köynəklərídə öz ənənəvi stilinə uyğun olaraq fərqli geyim formalarından sayıla bilər. Qərb köynəklərin kəsimləri daha sərt və boyunduruq formada olurdu. Bu

köynəklər daha çox denim və tartandan hazırlanırdı. Müasir dövrdə də geyim sənayesinə nəzər saldığımız zaman qərb üslublu tərzlərin üstünlük təşkil edildiyini görə bilərik.

Geyimlərin ümumi tələblərindən danışarkən onların istismar müddətləri və onlara qoyulan tələblərdən də danışmaq lazımdır. Çünki geyim aldığımız zaman keyfiyyətə diqqət etməkdə məqsədimiz həmin geyimin uzunömürlülük faktorudur.Təbii ki burada geyimin hazırlandığı material istifadə edildiyi texnoloji avadanlıqlar və modelyer dizaynerin estetik yanaşması vacib məsələdir.

Lakin qeyd etmək lazimdır ki, geyimlərin istismar müddətlərini başa vuraraq köhnəlməsi və sıradan çıxması təbii proses kimi qiymətləndirilir. Geyimlərin istismar müddətinə bəzi ədəbiyyatlarda onu xidmət müdəti kimi ad verilir. Bu müddət bəzi geyimlər üçün ay bəzi geyimlər üçün il bəzi geyimlər üçün isə illər sayıla bilər. Geyimlərin istismarını və yaxud xidmeti müddətini baça vurması müxtəlif faktorların təsiri nəticəsində baş verir. Bu təsirlər bəzən bir amil bəzən isə kompleks formada təsir edə bilir. Kostyum və geyimin dağılmasına kompleks təsir dedikdə; [20]

- Fotokimyəvi
- Bioloji mexaniki

təsirlər aid edilir. Lakin qeyd etmək lazımdır ki, geyimlərin xidmət müddəti ilə uzunömüllülüyünü bir-birindən fərqləndirmək lazımdır. Uzunömmürlülük anlayışında geyimlərin müxtəlif dövrlərdə istifadə edilmədən qorunaraq saxlanılması daxil edilir. Buna başka sözlə kostyumun istirahət dönəmi kimidə demək olar.

Yuxarıda qeyd olunandan belə bir nəticəyə gəlmək olar ki, geyimlərin xidmət yaxud da istismar dövrünə təsir edən iki səbəb mövcuddur. Bunlardan birincisinə həmin geyimçin köhnələrək sıradan çıxması və bunu nəticəsi olaraq həmin məhsula istehlakçı tələbinin azaldılması misal ola bilər. Bu yanaşmadan irəli gələrək köhnəlmə anlayışını iki müxtəlif formada xarakterizə etmək mümkündür. [19]

- Mənəvi köhnəlmə
- Fiziki köhnəlmə

Mənəvi köhnəlməni təhlil edərkən burada əsas diqqət edilən məqamın

kosstyumun müasir dəblə uyğunsuzluğu yaxud yeni məmulatların bazara çıxması nəticəsində istehlakçı zövqünün dəyişməsilə həmin geyimə tələbin azaldılmasıdır. Fiziki köhnəlmə anlayisi isə adından da göründüyü kimi geyimin aşınması və müxtəlif təsirlər nəticəsində köhnəlməsi kimi başa düşülür.

Qeyd etmək lazımdır ki, kostyuma qoyulan tələblərdən biridə məhz estetik tələblərdir. Buna başka sözlə estetik tələbdə demək mümkündür. Geyimlər insanın xarici görünümünə təsir etdiyi üçün bəzən estetik tələb digər kompleks tələbləri üsteləyə bilir. Estetik tələbləri təhlil edərkən burada fərdi yanaşmaların üstünlük təşkil etdiyini görmək mümkündür. Müxtəlif cəmiyyətlərdə və mədəniyyətlərdə moda gözəllik və estetika anlayışları fərqli olduqları üçün həmin bazar seqmentində estetik tələblərdə fərqli formada təzahür edir. Estetik tələblərə təsir edən amillər sırasında aşağıdakıları fərqləndirmək məqsədəuyğun olardı. [37]

- Həyat səviyyəsi
- Zövq amili
- Mədəniyyət
- Milli xüsusiyyətlər və ənənələr
- Yaşayış tərzi
- Iqlim şəraiti

Məhz bu faktorlar insanların gözəllik haqqında fikirlərini tamamilə dəyişir.Bu isə öz növbəsində insanların estetikaya yanaşmasını və geyim kolleksiyasını formalaşdırmağa təsir edir. Bununla yanaşı geyim və kostyuma təsir edən tələblər sırasında moda və üslubuda fəqləndirmək mümkündür.

Üslublardan danışarkən insan cəmiyyətinin xüsusiyyətlərinin adət ənənələrini o cümlədən bədii mədəniyyət çalarlarını özündə birləşdirən analyışları başa düşmək mümkündür. Bədii üslublar orta əsrlərdən müasir dövrə qədər olan geyimlərdə öz təzahürünü saxlamışdır. Əvvəlki bölmələrdə də təhlil etdiyim kimi müxtəlif dövr avropa və şərq rəssamlarının əsərlərində cəmiyyətin müxtəlif təbəqələrinin xüsusilə kral və zadəgan ailələrinin geyimlərinin təsvirində bədii üslubun xəsusiyyətləri əks olunmuşdur.

Müasir geyim üslublarında yüksək tələb geyim sənayesoini inkişafina yüksək təsir göstərmişdir. Bu isə öz növbəsində keyfiyyətli və rəqabətli geyim butiklərini və məhşur dizaynerlərin meydana gəlməsinə səbəb olmuşdur. Dünya bazarinda kostyum və geyimistehsalında xüsuai payı olan beıe dizayn sirkətlərindən biri Emporium Armanidir. Bu şirkətin əsası 1975 ci ildə Georgio Armani tərəfindən qoyulmuşdur.

Armani yüksək keyfiyyətli və dəbdəbəli zövqə malik kostyumlar zinət əşyaları o cümlədən ərtiyyat ləvazimatları istehsal edən şirkətdir.1990-cı illərin sonlarında şirkətin dünyada 200-dən çox dükanı mövcud idi. Bu dövrdə tələblərə uyöun olaraq şirkət diversifikasiya  başlamışdır. Belə ki, Armanı artıq öz məhsullarını Emporio Armani, Armani exchange, Armani Jeans və Armani Collezioni xətti ilə satışa çıxarmışdır. Bu gün dünya bazarında dəbdəbəli brendlər təklif edən və yüksək tələb olan dizayner şirkətlərdən biri olaraq Armani böyük paya malikdir.

Moda sənayesində yüksək tələbliliyi qoruyan digər bir brend şirkət frabsiz firması olan Şaneldir.Şirkətin ilk dükanı 30 yaşlı Gabbriello Koko Şanel tərəfindən açılmış və ilk olaraq dəbdəbəli ciddi geyimlər satılmışdır. daha sonra 1921- ci ildə şirkət  Chanel N5 lə bazara daxil olmuşdur. 1924-ci ildə şirkətin ysradicisi Coco yalnız sadə insanlar üçün deyil Sergediyagilev baletində iştirak edən xareograflar üçün geyim dizayn etməyə başlamışdır.

Həqiqətəndə 50-ci illərdə bu brend altında olan parfüm bütün avropada həddən artıq məhsur idi. 1954-cü ildə məhşur aktrisa Merlin Monro ilə müsahibə zamanı gecə yatarkən hansı geyimi seçdiyini soruşduqda yalnız bir neçə damcı nömrə 5 istifadə etdiyini demişdir. [50]

XXI əsrdə də Şanel brend olaraq dünya bazarında xüsisu seqmenti olan sirketdir.kompaniya modaya daxil olan parfümeriya geyim aksessuarlar və bu kimi digər məmulatların satışı ilə məşğuldur.Dünyanın ele bir ölkəsi yoxdur ki, orada Şanelin məhsullarina rast gelməmək mümkün olmasın.

Yuxarida qeyd olunanlardan belə nətucəyə gəlmək mümkündür ki, kostyum və geyimin istehlakçı tərəfindən seçilməsi və istifadəsinə müxtəlif növ amillər təsir göstərir. Bununla yanaşı, bu təsirlər onun istehsalına  və bazar tələbinə dolayı və

birbaşa amillərlə təsir edir. Eyni zamanda, bu tələblər sırasında həm fiziki, həm də mənəvi köhnəlmə anlayışları da fərqləndirildi ki, bunlar da əsas etibar ilə seçimlərə və tələblərə təsir edən vasitələr kimi qiymətləndirilirdi.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, müasir qərb üslublu geyimlər dünya bazarnda geyim sənayesinin əsas hissəsini təşkil etmişdir. Burada istər keyfiyyət amilləri, istərsə də estetik faktorlar bu üslubun daha geniş yaylmasını şərtləndirmişdir. Qərb üslublu geyimlər həm ciddi ziyafət geyimlərində, həm də idman üslublu geyimlərdə öz fərqliliyi qoruyub saxlayır.

## 3.2. Kostyumda estetik xüsusiyyət

Əvvəlki mövzularda da təhlil etdiyimiz kimi geyim yaxud kostyum insanın fiziki simasını örtən və bununlada müəyyən görünüş yaradan bir vasitədir. Burada nəinki kostyumun yalnız özü hətta papaq ayaqqabı müxtəlif aksessuarlar ətriyyat o cümlədən makyajda daxildir. Bu baxımdan kostyumdan danışarkən gözəllik və estetika anlayışlarından danismamaq mümkün deyil. Kostyumun estetikasından və gözəlliyindən danışarkən kulturoloji təhlil məsələlərinə toxunmuş oluruq. Kulturoloji təhlil kostyumun estetikasının analizi üçün vasitə hesab edilə bilər. Bu konteksdə yanaşsaq kostyumun və ya geyimin özünün mükəmməliyi və ya gözəlliyi və insan obrazını yaratmaq üçün dəyişiklik başa düşülür.

Kosyumun öz gözəlliyindən danışarkən onun estetik tərəfləri rəngarəngliyi obrazlı ifadəliliyi harmonikliyi kimi məqamlara diqqət edilir. Bununla yanaçı əlbətdəki keyfiyyət amilidə nəzərə alınan faktorlardan hesab edilir. Sadə bir nümunə ilə qeyd etmək olarki geyim almağa gedərkən dükanlarda podiumlara qoyulan manikenlərin üzərindəki geyimlər daha tez diqqətimizi çəkir. Bu isə yalnız geyimin öz gözəlliyi ilə bağlıdır,çünki o geyimi daşıyan insan deyil.

İkinci əsas funkisiyaya nəzər saldığımız zaman burada kostyumunöz gözəlliyi deyil insan obrazını dəyişdirmək əsas götürülür. Sadə bir misal vasitəsi ilə qeyd edə bilərik ki, gözəl libasda olan bir qız və yaxud bir oğlan gördüyümüz zaman nə gözəl

paltardır ifadəsi deyil nə yaraşıqlı oğlandır və ya nə gözəl qızdır deyə ifadə edirik. Bu isə onu göstərir ki, kostyum o fərdlərin obrazında çox ciddi dəyişiklik yaratmişdir. Və bunun nəticəsində kostyumun gözəlliyi o insanların simasını əhəmiyyətli dərəcədə dəyişmişdir. Bununla yanası qeyd etmək lazımdır ki, bu obrazlılığı dəyişməyə kömək edən aksessuarlar modelyer dizaynerin təxəyyülü və digər oplikasiyalardır. Müasir dövrdədə mükəmməl görünüşlü insanların diqqət mərkəzində olan kostyumu yalnız o insanın o geyimi daşıdığı zaman daha qiymətli olur. Bunun nəticəsində isə cəmiyyətin gözü önündə qüsursuz bir insan modeli ortaya çıxır.

Geyim estetikasının təhlili zamanı müxtəlif üsullardan istifadə etmək mümkündür. Bunlardan vacib olanlardan biri estetik reaksiyanı ölçməkdir. Bəzi alimlər estetikanı elm və sənət arasında bir intizam kimi qiymətləndirir. Məhşur İtalyan yazıçısı Tomas Munro estetikanı müxtəlif formalarda təhlil edərək rasionallaşdırmışdır. Estetik cavabın ölçülməsi estetik nüansları anlamaq üçün bir yanaşmadır. Estetik öyrənmənin keyfiyyətli metodları mövzunun mürəkkəbliyini araşdırmaqda bizə köməklik edir. Əlbətdə ki, burada müşahidə, təhlil və ekspert yanaşması geyim estetikasının ölçülməsi və təhlili üçün əsas üsullar ola bilər. Bu baxımdan vizual moda da mühüm vizual modaları təhlil və şərh etmək üçün müşahidə üsulu olduqca əhəmiyyətlidir.

Kostyumun estetik xüsusiyyətlərindən danışarkən üç əsas xüsusiyyəti fərqləndirmək vacibdir. Bunlardan birincisi Üslub, ikincisi və dəb üçün vacib hesab edilən Stil və ən nəhayət formanı fərqləndirmək olar. Əvvəlki bölmələrdə də geyim xüsusiyyətlərini təhlil etdiyim zaman müxtəlif geyim üslublarda nümunələr getirmişdik. Buna misal olaraq ziyafət geyimləri idman üslublu geyimlər lirik və ciddi üslub malik geyimlər göstərilə bilər.

Qeyd edək ki, bu üslublar müxtəlif xarakteristikalarına görə bir- birindən fərqlənirdilər. İdman üslubunda olan geyimlərdə sərbəstlik və rahatlıq, ziyafət geyimlərində cəlbedicilik və rəngarənglik, klassik geyimlərdə isə ciddiliyi ilə seçilir. 1980- ci ildən başlayaraq klassik geyimlərin xüsusiyyətlərində müəyyən dəyişilliklər olmağa başladı. Klassik kəsimlər müəyyən dərəcədə daha modern kəsimlərlə

əvəzlənməyə və müxtəlif aksessuar və bujiteriyaların istifadəsinə başlamışdır. Hazırda əsas üslublara nəzər saldığımız zaman müasir geyim sənayesi yenədə klassik və retro tərzlərə müraciət etdiyini görmək olar. Bununla yanaşı idman geyimləri o cümlədən cins və briclər əsas istifadə edilən tərzlərdən sayılır.

Klassik geyimlərdən danışarkən müxtəlif dövrlərdən və inkişaf mərhələlərdən keçərək öz ciddiyini qoruyaraq günümüzə qədər gəlib çatmış üslublar nəzərdə tutulur. Bu geyimlər daha çox qara və ağ rənglərdən istifadə edilərək hazırlanmış kostyumlardır. Klassik geyimlərə misal olaraq ilk dəfə 1924-cü ildə Qabriel Şanel tərəfindən hazırlanmış qara rəngli qadın geyimini misal göstərə bilərik. Hal-hazırda klassik üslubdan daha çox idarə və müəssisələrdə dövlət sektorunda və ofislərdə çalışan insanlar daha çox istifadə edilir. Lakin klassik üslub ziyafətlər də də geniş istifadə edilən geyim tərzlərindən həsab edilir.

İdman üslubundan danışarkən klassik üslubundan fərqli olarq burada daha çoc rahatlıq dinamiklik və gigeniklik əsas şərt kimi qəbul edilir. Sport geyimlər ilkin yarandığı gündən fərqli olaraq yalnız idman məqsədləri üçün deyil, gündəlik istifadə üçün geyiş yayılmış geyim tərzləridir.

Müasir dövrün geniş yayılmış geyim üslublarından biridə cins üslubudur. Cins geyimlərinin tarixinə nəzər saldığımız zaman ilkin olaraq onun mədən işçiləri üçün hazılandığını görmək mümkündür. Cinslər ilk olaraq denim və yaxud cod parçadan hazılanırdı. Burada isə məqsəd mədəndə çalışan içşilərinin bədənlərinin müəyyən zədələrdən qorumaq idi. Cinslər ilk dəfə 1973 cü ildə Jakob davis və Levi Srtauss tərəfindən baçka bir formada dizayn edilərək gündəlik geyim tərzi kimi təqdim edildi. 1851-ci ildən baçlayaraq artıq amerikanın müxtəlif ştatlarında satılan geyim formalarından biirinə çevrildi. Müasir dövrdə də cinslər insanların gündəlik istifadə etdikləri əsas geyim tərzlərindən biridir. Cinslər idman üslublu dəqiq kəsimli və çoxlu sayda cibləri və metaldan hazırlanmış düymələri ilə məhşurdur.

Geyim üslublarından danışarkən retro üslub formasınıda qeyd etmək məqsədə uyğundur. Retro üslublu geyimlər müxtəlif dövrlərdə özundən əvvəlki dövrün ornamentlərini özündə daşıyan geyim üslublarıdır. Lakin retro geyimlərdə əvvəlki

dövrün aksessuarlari və geyim tərzi təsvir edilsədə bu tərzdə müəyyən dərəcədə modern üslubdan istifadədə zəruridir.

Yuxarıda qeyd etdiyimiz məsələlər geyimin üslubu ilə bağlı idi. Lakin üslubla yanaşı stil anlayışıda vacibdir. Stildən danışarkən həm müasir dövr həmdə qədim dövrlərində olan geyim üslublarından nümunələr gətirmək olar. Qədim misirlilər paltarları üçün düz lakin klassik tərzli kətandan istifadə edirdilər. Müasir dövrdə də bu cür uslubda hazirlanmış geyimləri müxtəlif təqdimat mərasimlərə və ziyafətlərə geyinirik. Və ən mühüm məsələ ondan ibarətdir ki, qədim dövrlərdə sadə insanlar tərəfindən hazırlanan geyim stilləri indi məhsur dizaynerlər tərəfindən hazırlanır.

Qədim Yunanıstanda nə geyindiyiniz haqqında deyil, onu necə geyinməyiniz və necə təqdim etməyiniz deyilişi məhşur idi. Stillərdən danışarkən insanların emosiyalarının və düşüncə tərzlərinin neticəsində meydana gələn əsas geyim prinsipləridir.

Qeyd etmək lazımdır ki, stil yalnız geyim üslublarında deyil müxtəlif növ incəsənət nümunələrində özünü biruzə verir. Bu ədəbiyyat memarlıq o cümlədən rəssamlıq və digər dizayn ornamentlərində və musiqidə özünü göstərir. Klassik geyim stillərindən danışdığımız zaman əvvəlki bölmələrdə də təhlil etdiyimiz kimi rokoko ampir barokko qotika kimi tərzlər nəzərdə tutulur.

Lakin qeyd etmək lazımdır ki, hər bir dövrün özünün xüsusi stili mövcud olmusdur ki, həmin dövr öz xarakterik xüsusiyyətlərini həmin kostyumlarda göstərmişdir. Bu xüsusiyyətlər istər geyim tərzlərində istər memarlıq abidələrində aşkar formada göstərilmişdir. Bu baxımdan stillərdə klassizm və neoklassizm kimi formalar mövcuddur.

Stillin inkişafı və təşəkkülündən danışarkən onun 3 mərhələsini fərqləndirmək lazımdır. [19]

1. Mənşə
2. Apogeya
3. Tənnəzüll

Qeyd etmək lazımdır ki, klassik modern idman və retro ilə yanaşı müasir dövrdə müəllif stilləridə çox məhşurdur. Müəllif stillərində yaradılan geyim daha çox müəllifin təxəyülüun məhsuludur. Burada modelyer dizayner öz müşahidələrinə və bədii yaradıcılığına əsaslanaraq şəxsi stilini ortaya qoyur. Müasir dövrdə müəllif stili həm Qərbi Avropada həm də Amerikada geniş yayılmışdır.

Müəllif stilindən danışarkən misal olaraq Chanel, Emporium Armani, Maurisia Lakrosi, Versace və digər məhşur modelyer dizaynerlərin əl işlərini göstərmək olar. Bununla yanaşı bu dövr müəllif stilli haqqında məlumatları daha çox moda dəfilələrindən müxtəlif növ moda jurnalarından və internet səhifələrindən almaq mümkündür. Qeyd edək ki, müasir geyim sənayesinin inkişafinda müəllif stilinin rolu daha böyükdür.

Müasir kostyumdan danışarkən onun bir neçə hissədən ibaret olması fikri ilə rastlasiriq. Başqa sozlə desək kostyumlarda çox qatlılıq anlayışı mövcuddur. Burada kostyumun müxtəlif hissələrinin 1-1-nə müəyyən vasitələrlə bağlanması yaxud bir-birinə geydirilməsi əsas formalardan həsab edilir.

Kostyumlar yaradılarkən onlar yalnız bədənin müəyyən bir hissəsini örtəyə xidmət etmək üçün yaradılmır. Burada kostyumun tamlığı vacib məsələdir. Tamlıq isə kostyuma əlavə olaraq ayaqqabı küynək və digər aksessuarların əlavə edilməsi nəzərdə tutulur.

Kostyumun formasında danışarkən yada düşən ilk məsələ kostyumun siluetidir. Siluetlər eyni zamanda kostyumun forması hesab edilir. Məhz buna görə də kostyum formalarının dəyişməsi eyni zamanda siluetlərin dəyişimi ilə nəticələnir. Bu baxımdan kostyumun formasında iki əsas siluetlər fərqləndirilir. Bunlardan birincisi frontal siluet digəri isə profil siluetdir.

Geyim sənayesinin inkişafı müxtəlif növ stillərin yaranmasına və yayılmasına səbəb olmuşdur. Bu təkcə özünü kostyum sənayesində deyil digər sahələrdə də hiss etdirmişdir. Bu baxımdan 19-cu əsrin sonu 20-əsrin başlanğıcından aşağıda qeyd olunan siluet növləri formalaşmısdır. [30]

1. Düz siluet
2. Yarıbitişik siluet
3. Yapışan siluet

Qeyd edilənləri ümimiləşdirərək kostyum və geyimin estetik xüsusiyyətlərinə bir çox amillərin təsir etdiyini vurğulamaq olar. Burada estetik xüsusiyyətlərdə stil üslub və forma fərqləndirilir ki, bunlarda həm müasir dövr həm klassik dövrün geyimlərində fərqliyi yaradan vacib amillərdir. Bununla yanaşı təhlilər zamanı diqqət etdiyimiz digər bir məqam müəllif stilinin müasir dövrün əsas trendi olduğudur. Bu gün geyim sənayesinin əsasını təşkil edən müəllif stili daha çox bazar seqmentini qazanmağa müvafiq olmuşdur.

## 3.3. Kostyumun kompozisiyasında rəng çalarları və aksessuarlar

Kostyum estetikasını təhlil etdiyim zaman harmoniya və rəng çalarlarının əhəmiyyətinə nəzər salmışıq. Qeyd edək ki, ümumilikdə rənglərlə bağlı araşdırmalar həm müasir dövrün həm də antik dövrün əsas tədqiqat obyektlərindən olmuşdur. Müxtəlif dövrlərin rəssam dizaynerlərin çəkdiyi əsərlərə nəzər saldığımız zaman istər orta əsrlər istərsə də 20-ci əsrin əvvəllərində rəngarəng geyimlərin bütün dəbdəbəli tərzlərdə istifadə olunduğunu müşahidə etmək mümkündür. Qeyd edək ki, rəngli geyimlər daha çox 12-ci əsrdən məhşurlaşmağa başlamışdır. Bu dövrdən sonra rənglər müxtəlif bədii kompozisiyalarla geyimləri bəzəmişdir. Lakin sözügedən dövr ərzində daha çox qara ağ qırmızı rənglərə üstünlük verilirdi. 12-ci əsrdə müqəddəs Viktor Huqonun qeyd etdiyi kimi müxtəlif geyimlərin müxtəlif geyimlərlə bəzədildiyi zaman bunun sanki təbiətlə vəhdət təşkil etdiyi vurğulanmışdır. Qeyd etmək lazımdır ki, bu dövrdə qara və qırmızı rənglərlə yanaşı mavi rənglərlədə olan geyimlər gəlib çatmışdır. Bununla yanaşı hər bir rəngə müxtəlif məna çalarları verilmişdir.

•Ağ rəng - saflıq təsirsizlik və şəfqətin simvolu hesab edilirdi. Bu həmdə özünü sülh və günahsızlıq kimi də hesab edilirdi.

•Qara rəng - daha işçi geyimlərdə istifadə olunurdu. Bunun əsas səbəbi isə çirklənməyə daha az meyili olduğu idi. Eyni zamanda bu rəng tövbə və yas rəngi kimi də xarakterizə edilirdi. Lakin 14- cü əsrdən başlayaraq qara rəng aristokratiyanın sevimli rənginə çevrilmişdir.

•Qırmızı rəng zadəgan və padşahların sevimli rəngi idi. Məhz buna görə bu rəng zəfər, güc, xəstəliklərdən və pis ruhlardan sığınacaq rəng hesab edilirdi.

Rəngləri təhlil edən zaman məhşur rəssam Leonardo Da Vinçinin rənglərlə bağlı nəzəriyyəsini yada salmaq məqsədə uyğundur. Da Vinci hesab edirdi ki, yer üzərində əsas 5 rəng mövcuddur. Və bütün digər rənglər bu 5 rəngin qarışığından alınır. Da Vincinin qeyd etdiyi əsas rənglər bunlardır [30]

1. Yasıl
2. Qırmızı
3. Sarı
4. Ağ
5. Göy

Qeyd edək ki, Leonardo Da Vinci rənglərin təbiətlə uyğunluğunu qeyd edərək hər bir rəngə uyğun bir təbiət simvolu yaraşırmışdır. Belə ki, o qırmızı rəngi odun simvolu, ağ rəngi işığın, yaşıl rəngi suyun, sarı rəngi torpağın və nəhayət göy rəngi havanın göstəricisi hesab edirdi.

Kostyumun rənglərindən danışarkən xüsusilə qeyd etmək lazımdır ki, bu ornament ən çox dəyisikliyə məruz qalan hissədir. Kostyumun forması bir neçə vaxt dəyisməz olaraq qala bilir. Lakin rəng qammaları dəyişərək yeni formaları meydana gətirir. Müasir dövrdə də kostyum və geyimin seçimi zamanı bəzən daha çox sadə rənglərə üstünlük verilir. Amma rənglərin seçimi mövsüm və iqlim şəraitinə görə dəyişə bilir. Yay aylarında daha çox açıq rəngli kostyumlara üstünlük verildiyi halda qış aylarında tünd rənglərə üstünlük verilir.

Bununla yanaşı, rənglərin parlaq və mat formada seçilməsi də vacibdir. Gündəlik geyimlərdə istifadə üçün nəzərdə tutulmuş kostyumlar daha çox mat parçalardan hazırlanır. Lakin ziyafət geyimlərində bu daha fərqlidir. Belə ki, bu tip yerlərdə iştirak üçün tikilmiş paltarlar daha incə və parlaq materiallardan istifadə edilir. Bundan əlavə rənglər kostyumu geyinən insanın fiziki görkəminə də təsir göstərir. Daha uzun boylu insanlar tək rənglərdən istifadəyə üstünlük verir. Eyni zamanda uzunboy insanlar düz xətli seçimlərə üstünlük verməsi məqsədə uyğun hesab edir. Qısa boylu bədən quruluşuna malik insanlar isə incə və qoşa düyməli kostyumlar geyinməsi tövsiyyə edilir.

Kişi və qadınlar öz qarderoblarını formalaşdırarkən həm fərqli həm də eyni rəngli seçimlərə baxa bilir. Xüsusilə yay aylarında açıq rəng çalarları üstünlük təşkil edən qadın geyimləri xanımların qarderobunun əsas tərkib hissəsidir. Qara rəng məhşur modelyer dizayner Koko Şanelində əsas seçimlərindən biri olmuşdur. Təsadüfi deyil ki, o 1924-cü ildə yaratdığı ilk klassik geyimi məhz qara rəngdə hazırlamışdır. Kostyumlarda qara və ağ rənglərlə yanaşı göy rəngdəndə istifadə geniş yayılmışdır. Göy rəngində tünd rəngli olduğunu nəzərə alaraq bir çox modeyer dizaynerlər geyimlərin hazırlanmasında bu rəngə müraciət edirlər.

Kostyumda rəng estetika ilə sıx bağlıdır. Eyni zamanda rənglər kostyumun harmoniyasını formalaşmasına təsir edir. Belə ki, harmoniya kostyumun bütünləşməsi və obrazlı ifadəliliyə çevrilməsi üçün əsasdır. Bu baxımdan rəngləri müxtəlif kateqoriyalara bölməklə hər bir hissəsini izah etmək mümkündür. Burada rənglər məzmunluluğuna fiziki görünümünə estetikasına görə fərqləndirilə bilir.

Rənglər bəzən sadə görünsə də insanların vizual görünüşü üçün əhəmiyyətə malikdir. Bəzən qarşımızdakı insanın geyimində olan rənglər uzun müddət qarşı qarşıya oturduğu zaman insanda narahatlıq yaradır yaxud əksinə onlara göz oxşayır. Rəngləri müzakirə etdiyimiz zaman qırmızı rəngin insanların əsas sisteminə təsir etdiyini görmək mümkündür. Bu tip güclü rənglərlə yanaşı bəzi rənglər passiv xarakterlidir. Bu tip rənglər daha çox xaricə yönəlmiş və ya incə rənglər kimi xarakterizə edilir. Buna misal olaraq yaşıl, sarı, bənövşəyi rəngləri göstərmək olar.

Tədqiqatlar göstərir ki, insanlar geyim seçimi zamanı rənglərə böyük üstünlük verir. Lakin geyim sənayesilə məşğul olan insanlar yaş kateqoriyalarını rəng seçimlərini etməyi bacarırlar. Buna misal olaraq göstərmək olar ki, 1-3 yaş qruplarında olan uşaqların rəng secimləri yaratdıqları yerə uyğun olmayaraq eynidir. Onlar daha çox qırmızı rəngə, sarı rəngə o cümlədən narıncı rənglərə üstünlük verilir. Daha yuxarı yaş kateqoriyaları, məsələn 13-15 yaş aralığında olan uşaqlar daha çox açıq rənglərə ağ, sarı, mavi rəngli olan geyimlərə üstünlük verirlər.

Svillizasiyanın yarandığı gündən insanlar aksessuarlardan istifadə etməyə başlamışdılar. Aksessuarların çeşidliliyi geniş olduğu üçün onların tarixidə fərqlidir. Boyunbağı və zincirlər svilizasiyanın ən qədim dövründən istifadə edilməyə başlanmışdır. Bəzən onun tarixinin 40min ilə gedib cıxdığı fərz olunur. Ən qədim boyunbağı formaları müxtəlif heyvanların diş və sümükdən quş lələklərdən oyma ağaclardan  toxumlarda daşlardan və ətraf mühütdə oln digər əşyalardan hazırlanıırdı. Bəzi hallarda isə həddən artıq çətin tapılan ərazilərdən olan materiallardan istifadə edilərək hazırlanırdı. Bizim eradan əvvəl 4200 - 3400 ci illərdə Alp dağlarında yerləşən neolitik dağlarında olan poliplərində yerləşən mercan muncuqlarından hazırlanan dəyərli boyunbağılar misal ola bilər.

Lakin metal düzəltmə işləri inkişaf etdikcə insanlar üçün daha çox aksessuar təqdim etmələri genişləndi. Metaldan hazırlanmış düz hilal şəkkili boyunbağı və ya lunula 1800-1500 illərdə qədim İrelandiya ərazisində tapılmışdır. Bu boyunbağı qızıl mis gildən hazırlanırdı.

18 - ci əsrə qədər boyunbağılar həm kişi həm qadınların əsas aksessuarları hesab edilirdi. İnsanlar buna görə də, həmin dövrdə istifadə etdiyləri boyubağına zəncir adı verilir. 1960-ci illərdə Amerika pop - mədəniyyəti sevgililər və dikoteka rəqsləri ilə kişilər üçün boyunbağı istifadəsini yenidən təbliğ etdilər. Bəzi qızıl zəncirlər qızıl xaç və ya qızıl İtalyan boyunbağı kimi bəzəkli bəziləri isə muncuqlardan istifadə edərək hazırlanırdı. Müasir dövrdə də boyunbağılar müxtəlif qiymətli daş- qaşdan qızıldan yaqutdan və s məmulatlardan hazırlanır və geyimlərə xüsusi bir tamamlayıcı estetika

verir. Qeyd etmək lazimdir ki, aksessuaraların istifadəsi zamanı onların geyimlərlə uyğunluğu mühüm əhəmiyyət kəsb edir.

Geyimlərdə istifadə edilən məhşur aksessuatlardan biri də qolbaqlardır. Tədqiqatlar göstərir ki, ilk qolbaq bizim eradan 7500 il əvvəl Türkiyə ərazisində rast gəlmişdir. Bu qolbaq xüsusi maddə olan vulkanik Obsidiendən hazırlanmışdır. Bununla yanaşı qədim dövrlərdə müxtəlif ağaclardan oymalardan qolbaqlar hazırlanırdı. Daha sonralar kişilər və qadınlar qızıl və bürüncdən hazırlanmış qolbaqların istifadəsinə başlamışdılar.

Müasir kostyumlarda da aksessuarlar geniş istifadə edilir. Lakin aksessuarlar köməkçi detallar hesab edilir. Bunlara misal olaraq papaqlar çantalar,qolbaqlar, şarflar, boyunbağılar, saatlar, üzüklər göstərmək olar. Lakin qeyd etmək lazımdır ki, aksessuarlar köməkçi detallar olsa da kostyumun tamamlayıcı funksiyasında işlənir. Bəzən kostyumları aksessuarsız təsəvvür etmək olmur. Çünki onlar kostyuma yeni bir tərz qatır.

Kostyumun və dəbin cazibədarlığından danışarkən aksessuarın əhəmiyyətidə qeyd edilməlidir. Bəzən istifadə edilmiş xırda bir aksessuar: şarf, papaq geyimin tərzini tamamilə dəyişir, ona sanki yeni bir ruh verir. Bu həmdə dizaynerin yaxud istifadəçinin şəxsi təxəyyülü nəticəsində geyimləri tamamlamış olur.

Müasir dövrdə modelyer dizaynerlərin fərdi formada yaratdıqları aksessuarlarla yanaşı tamamilə bu işlə məşğul olan xüsusi şirkətlər fəaliyyət göstərir. Dünya bazarında dəb-dəbəli aksessuardan olan belə bir şirkətlərdən biri də Svaroviskidir. Bu şirkətin əsasını məhşur Avstryalı usta Daniel Svarovski qoymuşdur. Svarovski aksessuarları şüşə kristallarından hazırlanmış məhsullardır. Şirkət tərəfindən müxtəlif formalı qolbaqlar, boyunbağlar, üzüklər, sırqalar və saatlar istehsal edilir.

Bölmənin təhlili zamanı həm qədim dövrlərəd həm də müasir dövrdə kostyumda rəng və aksessuarlarının rolunun vacibliyinə diqqət yetirilmişdir. Araşdırmalar gösterir ki kostyumlarda rən secimi bəzən sadə görünsədə əslində mürəkkəb prosesdir. Belə ki bəzən xosumuza gələn hər hansi bir rəng ətrafımızda ki insanlara cox yorucu görsənə bilir. Bu baxımdan rəng seçimi bəzən psixoloji faktorlara təsir

edir. Bununla yanaşı geyimlərin rəngi istifadə edilən kosmetik vasitələr dərinin rəngi ilə də uyğunluq təşkil etməlidir. Düzgün secilməyən makiyaj cox ciddi əks effekt yarada bilər.

Qeyd edək ki, kostyuma təsir edən digər faktorlar kimi aksessuarların roluda vacibdir. Yuxarida da qeyd etdiyimiz kimi aksessuarlar köməkci funksiyada olmasına baxmayaraq kostyumun tamlığını formalaşdiran əsas vasitədir. Araşdırma bir daha göstərdi ki, aksessuarlar svilizasiyanın yarandığı gündən insanların istifadə etdiyi əsas vasitə olmusdur. Bu müasir dövrdə də dəbin və geyin əsas elementi olaraq öz aktuallığını saxlayır. Müasir dövrdə ən çox istifadə edilən aksessuarlar sırasına qolbaqlar, boyunbağılar, saatlar daxildir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qədim zamanlardan etibarən kostyum çoxsaylı inkişaf mərhələsindən keçib. Hər dövrdə moda üçün bir əsr dəyişməyən fərdi üslubu ilə xarakterik idi. Barokko və ya ampir üslubundan fərqli olaraq, müasir kostyum çox tez dəyişir. Kostyumun inkişafı cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirir. Lakin, hər bir yenilik də indiki zamanda moda və uyğunlaşmaq deyil. Çox tez-tez müasir bir kostyumda keçmiş dövrlərin əks-sədalarını tapmaq olar. Yeni əsr həyat, davranış, ünsiyyət, düşüncə tərzini diktə edir. Kaleydoskopik sürətlə həyat dəyişir. Müasir bir şəxs üçün, dəyişkən və mobil, bir şəxsin ümumi ardıcıllıqdan fərqlənməsinə və şəxsi və peşə müvəffəqiyyətinə qatqı təmin etməsi lazım olan bir təsvirə sahib olmaq çox vacibdir. Yeni düşüncə üslubunun əlaməti hər bir insanın şəxsi orijinallığı və unikallığıdır. Yalnız əşyalar - paltar, ayaqqabı, əlavələr - onların harmonik birləşməsi olmadan artıq cəmiyyətlə maraqlanmır.

Dissertasiya işində müasir kostyumların inkişaf xüsusiyyətləri ortaya çıxdı. Tədqiqatın gedişində, hər dövrün kostyumlarında, indiyədək gündəmə gələn bir dəyişiklik izlənildi: xüsusilə “kostyum” konsepsiyasının mahiyyəti aşkar olundu, bədii mədəniyyət sistemində kostyumun rolu müəyyən edildi. Dissertasiya işində kompozisiya, kompozisiya, kolleksiya, üslub və dizaynda stilizasiya kimi konsepsiyalar istifadə olunmuş, hərtərəfli baxılmış və tədqiq edilmişdir.

Beləliklə, tədqiqat nəticəsində müasir kostyumun sələfləri ilə müqayisədə daha çevik, dəyişkən və gözlənilməz, estetik cəhətdən daha göz oxşayan olduğu ortaya çıxmışdır.

Qeyd etmək lazımdır ki, müasir bir kostyum yaradarkən dizayner yalnız moda yenilikləri deyil, həmçinin rahatlığı, çoxfunksiyalılığı və müasir cəmiyyətin tələblərinə və zövqünə uyğun olmalıdır. Sözün ümumi mənasında müasir paltar XX əsrin paltarları hesab edilir, müasir dövrün paltarlarının əsas xüsusiyyətləri kostyumların sürətli dəyişməsi kimi qəbul edilir. Müasir və dəbdəbəli paltarlar əvvəlki moda ilə izah edilir, artıq mövcud olan formaları, detallarını, xətlərini inkişaf

etdirir və əlavə edir, növbəti il üçün ən maraqlı və eyni zamanda qəbul edilə bilən təklif edir. Müasir kostyumun əsas xüsusiyyəti zərif sadəlik və rahatlıq, gözəllik və faydalılıqdır.

İnsan tərəfindən reallığın mənimsənilməsi zamanı din insan mövcudluğunun mənaları və dəyərlərini axtarmaq üçün cavab olaraq (çağırış-cavab) ortaya çıxdı, dünyadakı simvolik modellər kimi dinlər də bütün mədəniyyətə və geyimlərə təsir etdi. Maddi mədəniyyət ibtidai sinxronizm şəraitində dindən yarandı. Politeizm dövründə onun ekoloji orientasiyası ilə ibtidai yaradıcılığın fundamental birliyi zamanı yerli şəraitdən asılı olaraq insanlar üçün müəyyən bir azadlıq dərəcəsi qalmışdır. Kostyumlarda kainatın üç yarusu açıq şəkildə fərqləndirilirdi:sonralar dünyanın digər modellərinin inkişafı ilə düzəldilən göyü, yerini, yeraltını. Monoteizm, insan idrakının ətrafdakı həqiqətə çevrilməsinin mütləq-universal şəklidir. Əslində bu cür intuitiv-etik mənimsəmə mədəniyyətə irəliyə doğru böyük bir addım atmasına imkan yaratdı. Həqiqətin intuitiv mənimsənilməsi müxtəlif dinlərdə fərqlənirdi. Lakin oxşar şərtlər eyni sinif növlərinin görünüşünü və müvafiq olaraq, onların dilində və mədəniyyətində fərqli olan ənənəvi kostyumların formasını dəstəkləyir. Mədəni müxtəliflik, genetik strukturla deyil, ətraf mühitə uyğunlaşmaq üçün fərqli yanaşmalarla, sosial-tarixi formalaşma şərtlərinə bağlıdır. Mədəniyyət dəyərlərin seçilmiş ierarxiyasına əsasən insanların yaşayış şəraitinə uyğun olan xüsusi qaydalar və kommunikasiya rejimi hazırlayır. Buna görə qonşuluqda yaşayan xalqların ənənəvi kostyumları çox fərqli və dərhal tanına bilir. Bir insanın sosial-mədəni fəaliyyətinin maddi və mənəvi nəticələri, özünəməxsus bir dildə ənənəvi kostyumda əks olundu.

İşdə araşdırılan məsələlər və əldə olunan nəticələrə nəzər saldıqdan sonra aşağıdakı bir sıra təklifləri irəli sürmək istərdim:

Ölkəmizdə ən çox rast gəlinən kostyum növləri əsasən geniş, insan bədəninə yapışmayan tam klassik tərzdə kostyumlardır. Lakin dünyadakı kostyum istehsalını və tələbatları nəzərə alaraq bu tərz kostyumların artıq tədavüldən qalxdığının şahidi ola bilərik. Bir əlcək kimi insan bədəninə yapışan kostyumların estetik cəhətdən daha

çox göz oxşadığını nəzərə alaraq bu tərzdə kostyumların istehsalının çoxaldılmasını və moda nümayişlərində daha geniş yer verilməsini təklif edərdim;

Kostyumların tikilişində şalvarların daha uzun olduğunu yəqin ki çoxumuz şahid olmuşuq. Lakin təklif edərdim ki, şalvarlar elə tikilsin ki, balağı ayaqqabının üzərində yığılmasın. Zənnimcə bu kostyuma xüsusi estetik görünüş bəxş edir;

Bəzən modadır deyə insanlar özlərinə yaraşmayan kostyumlar geyinirlər. bu təbii ki, heç estetik görünmür. Fikrimcə, dizaynerlər kostyum hazırlayarkən ölçü, proporsiyalarla yanaşı dəri rənginə, boy ölçüsünə, bir sözlə, standartlara deyil fərdlərə uyğun kostyum hazırlasalar daha yaxşı olardı.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Dünyamalıyeva S.S. Azərbaycanda ipək istehsalı və ipəkçilikdə istifadə edilən təbii boyaqlar. "Elm və Həyat", № 5, 1996.
2. Əfəndiyev R., Dünyamalıyeva S. Azərbaycan geyimləri Bakı, "Azərbaycan" nəşriyyatı 1997
3. Əfəndiyev R.S. Azərbaycan geyimləri tarixi. Azərbaycan Elmlər Akademiya-sının məruzələri XV cild № 9, 1959
4. Əliyeva G. Azərbaycan bədii parça və tikmələri Bakı, " Elm" 1990, 175 s.
5. M.Cəfərova- Z.İ.Xəlilova Qadın geyimlərinin konstruksiya edilməsinin əsasları Bakı 2011 "Elm və təhsil"
6. Rasim Əfəndi. XVI-XVII əsr Azərbaycan geyim və bəzəkləri "Qobustan jurnalı", № 2, Bakı, 1977.
7. Азербайджанский Государственный музей искусства им Р. Мустафаева, "Азербайджанский костюм" Баку-1963, 32 с.
8. Акилова З.Т., Петушкова Г.И., Пацявичюте А.А. Моделирование одежды на основе принципа трансформации. М.: Легпромбытиздат, 1995. Колейчук В.Ф. Кинетизм. М.: Галарт, 1994.
9. Беляева-Экземплярская С.Н. Моделирование одежды по законам зрительного восприятия. М.: Академия моды, 1996.
10. Герольд Роберт. Костюмы народов мира. Иллюстрированная энцикло-педия, Москва. эксмо-пресс -2002
11. Горина Г.С. Моделирование формы одежды. М.: Легкая и пищевая промышленность, 1981.
12. Гулиев Г.А. Азербайджанские вышивки. Советская этнография, №2, М., 1953.
13. Ермилова В.В., Ермилова Д.Ю. Моделирование и художественное оформление одежды. М.: Академия, 2000.
14. Жердев Е.В. Художественное осмысление объекта дизайна. М.: Аутопан, 1993.

15.Жердев Е.В. Художественная семантика дизайна. Метафорика. М.: Аутопан, 1994.
16.Измайлова А. А. О народный одежде населения юго-восточных районов Азербайджана. Изв. АН Азерб. ССР. Сер. обшест. наук, 1964, № 4
17.Кильпе М.В. Композиция. М.: МГХПУ им. С.Г.Строганова, 1996.
18.Кильчевская З.А. Азербайджанский женский костюм XIX в. из Карабаха. Вопросы этнографии Кавказа, Тбилиси, 1952.
19.Кильчевская З.А. Азербайджанский женский костюм XIX в. из села Оджах Халданского района. Материальная культура Азербайджана, Баку, 1951.
20.Козлов В.Н. Основы художественного оформления текстильных изделий. М.: Легкая и пищевая промышленность, 1981.
21.Козлова Т.В. Основы теории проектирования костюма. М.Легпромиздат, 1988.
22.Композиционные средства и приемыхудожественной выразительности в дизайн. М. ВНИИТЭ, 1982.
23.Кудимова Л. Н. Проектирование и моделирование коллекций одежды. Учебное пособие. - Л.: ЛВХПУ им. В. И. Мухиной, 1983.
24.Линдсей Я., Норман Д. Переработка информации у человека (введение в психологию). - М.: Мир, 1974.
25.Методика художественного конструирования. М.: ВНИИТЭ, 1978.
26.Нешатаев А.А., Гусейнов Г.М., Савватеева Г.Г. Художественное проектирование трикотажных полотен. М.: Легпромбытиздат, 1987.
27.Пармон Ф.М. «Композиция костюма». М, Легпромиздат, 1985..
28.Пармон Ф.М. Композиция костюма. Одежда, обувь, аксессуары. М.: Легпромбытиздат, 1997.
29.Пармон Ф.М., Бадеева М.О. Художественное моделирование промышленных образцов: Учебное пособие. М.: Легпромбытиздат, 1986.

30. Платов Ю.Т., Исаев С.М. Цвет, мотив, выбор. Владивосток: Изд-во Дальневосточного университета, 1990.
31. Праздников Г.А. Процесс художественного творчества. М.: Высшая школа, 1972. Раппопорт С.Х. Эстетическое творчество и мир вещей. Вып. 7. М.: Знание, 1987.
32. Рытвинская Л.Б. Образно-ассоциативная основа творчества художника-модельера: Учебное пособие. М.: МТИ им. А.Н.Косыгина, 1980.
33. Сазонова Н.В. Мир Сефевидских тканей XVI-XVIIвека. Москва Государственный музей Востока 2004.
34. Стриженова Т. Из истории советского костюма. М.: Советский художник, 1972.
35. Хан-Магомедов С.О. Пионеры советского дизайна. — М.: Галарт, 1995.
36. Сумбатзаде А.С. Щелкостацкие заведения в Азербайджане XIX в. Известия АН Азерб. ССР, 1958, № 6.
37. Эфендиев Т. Декоративно-прикладное искусство Азербайджана XIXначала XXБаку, "Çaşıoğlu" 2003,
38. Яковлев В.Г. Проблемы художественного творчества. М.: Высшая школа, 1972.
39. https://sevia.ru/zhenskie-sekrety/moda/modelirovanie/asvofor.shtml (18.09.2017)
40. http://elatus.az/site/?page_id=352 (20.04.2018)
41. http://infoportal.az/az/firm/12094 (20.04.2018)
42. Idil dergisi.com
43. Radikal.com.tr
44. Pandora.com.tr
45. Dergipark.gov.tr
46. www/ntv/com.tr
47. ccconection.org
48. marketbyteacers.com

# XÜLASƏ

# KOSTYUMUN OBRAZLI İFADƏLİLİYİNİ FORMALAŞDIRAN ESTETİK FAKTORLARIN TƏTBİQİ

Dissertasiya işi giriş, 3 fəsil, nəticə və təkliflərdən, o cümlədən 15 şəkildən, istifadə edilmiş ədəbiyyat siyahısından və xülasə hissəsindən ibarətdir.

Araşdırmanın giriş hissəsində, dissertasiyanın strukturu, onun əsas müzakirə mövzularını və mahiyyəti haqqında qısa məlumat verilmişdir.

Dissertasiyanın 1-ci fəsli “Kostyumun formalaşmasının nəzəri metedoloji aspektləri və tarixi inkişafı mərhələləri” adlanır və bu fəsildə əsasən kostyum və geyimin yaranması və inkişaf mərhələri və moda tarixi haqqında məlumatlar verilmişdir. Eyni zamanda, bu fəsildə dəb və tərz anlayışları və estetika haqqında məlumatlar əks olunmuşdur.

Dissertasiyanın 2-ci fəsli “Kostyumun bədii kompozisiyası” adlanır və bu fəsildə əsasən qədim dövrlə yanaşı müasir dövrdə yaranan moda üslubları və onların müqayisəli təhlilləri verilmişdir. Klassik üslubla yanaşı, idman üslublarının meydana gəlməsi və yeni növ kostyumların estetikasından bəhs edilmişdir.

Dissertasiyanın 3-cü və sonuncü fəsli olan “Kostyumun estetik əsasları” bölməsində kostyumun üslub və estetik xüsusiyyətləri, kostyumlarda rənglərin mahiyyəti, müasir modelyer dizaynerlər və onların yaratdığı moda dizaynları, o cümlədən aksesuarların əhəmiyyəti şərh olunmuşdur.

Dissertasiyanın nəticə və təkliflər bölməsində isə təhlillər zamanı əldə edilmiş əsas nəticələr və buna uyğun təqdim edilmiş təkliflər qeyd edilmişdir.

**SUMMARY**

**THE APPLICATION OF ASTETIC FACTORS FORMING THE OBJASIC APPLICATION OF THE COSTUM**

Dissertation consists of Introduction, 3 chapters, results and suggestions, including 15 images, a list of used literature and summary section. In the introductory section of the study, brief information on the structure of the thesis, its main discussion topics and substance was given.

The first chapter of the dissertation is called “The history of the formation of the theoretical aspects and stages of development of the costume methodology” and this chapter is based on the history of suits and dresses and developmental stages and fashion history. At the same time, this chapter provides information on fashion and style concepts and aesthetics.

The second chapter of the dissertation is called “The composition of the costume” and in this chapter, along with the ancient period, modern styles and their comparative analysis are given. In addition to the classic style, it is about the appearance of sports styles and the aesthetics of new types of suits.

The section 3 and chapter 3 of the Dissertation contains the styles and aesthetic features of the costume, the essence of colors in suits, contemporary fashion designers and their designs, and the importance of accessories.

The results and recommendations of the dissertation have been summarized in the course of the analysis and the proposals presented therein.

# РЕЗЮМЕ


# ПРИМЕНЕНИЕ ЭСТЕТИЧЕСКИХ ФАКТОРОВ, ФОРМИРУЮЩИХ ОБЩЕСТВЕННОЕ ПРИМЕНЕНИЕ КОСТЮМА

Введение в диссертацию состоит из трех глав, результатов и предложений, в том числе 15 изображений, списка использованной литературы и итогового раздела. Во вводной части исследования была дана краткая информация о структуре диссертации, ее основных темах и содержании.

Первая глава диссертации называется “История формирования теоретических аспектов и етапов развития методологии костюма”, и эта глава основана на истории костюмов и платьев, а также на этапах развития и истории моды. В то же время в этой главе представлена информация о моде и стилевых концепциях и эстетике.

Вторая глава диссертации называется “Состав костюма”, и в этой главе, наряду с древним периодом, даются современные стили и их сравнительный анализ. В дополнение к классическому стилю речь идет о появлении спортивных стилей и эстетике новых видов костюмов.

Раздел 3 и глава 3 диссертации содержат стили и эстетические особенности костюма, сущность цветов в костюмах, современных модельеров и их дизайн, а также важность аксессуаров.

Результаты и рекомендации диссертации были обобщены в ходе анализа и представленных в нем предложений.

# ƏLAVƏLƏR



**Şəkil 1.** Azərbaycan Xalçaçılıq və Xalq Tətbiqi Muzeyinin inventar nömrəsi 7498, XIX əsr qeydiyyatlı üst köynək.



**Şəkil 2.** XIX əsrə aid Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənət Muzeyindən çəpkən.



**Şəkil 3.** 6810 invertar nömrəli arxalıq. XIX əsr



**Şəkil 4.** Ləbbadə. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənət Muzeyində XIXəsrə aid 7305 invertar nömrəli ləbbadə



**Şəkil 5.** Arxalıq və tuman



**Şəkil 6.** Kostyum –obrazın eskizi



**Şəkil 7.** Məişət kostyumunun eskizi



**Şəkil 8**. Bitki formasının tam miqyaslı şəkli



**Şəkil 9**. Kostyum-obrazın eskizi



**Şəkil 10.** Məişət kostyumunun eskizi

Emiland-  kostyumlar








***Elatus moda evi***





**872M qrup maqistrantı Tağızadə Lalə Rəhman qızının**
**“Kostyumun obrazlı ifadəliliyini formalaşdıran estetik faktorların tədqiqi”**
**adlı mövzusunda magistr dissertasiyasının**

# R E F E R A T I

**Mövzunun aktuallığı**. Moda və dəbli geyinmək müxtəlif dövrlərdə hər zaman sivilizasiyaların diqqət mərkəzində olmuşdur. Hələ qədim dövrlərə nəzər saldığımız zaman müxtəlif imperiyalar və sultanlıqların dövründə saraylarda yaşayayan kral və onların ailələri, zadəganlar və tacirlərin ailə üzvləri hər zaman öz geyim tərzləri ilə fərqlənmişdirlər. Bu baxımdan moda və dəbli geyinmək üçün seçimlərə və fərdiliklərə üstünlük verilmişdir.

Əlbətdə ki, geyim tərzləri insanların yaşadığı məkan və bu məkanda olan iqlim şərtləri, sosial vəziyyətdən hər zaman asılı olmuşdur. Bundan əlavə insanların dini və adət ənənələrə baxışları da geyim tərzinə təsir edən əsas faktorlardan sayılmışdır. Bununla yanaşı, xüsusilə qeyd etmək lazımdır ki, hər bir dövrdə geyim və ya kostyum onun quruluşu, istifadə edilmiş material, qrim ifadəsi və estetik görünüşü baxımdan fərqlilik təşkil edir. Burada digər bir məqam isə geyimi və ya kostyumu formalaşdıran şəxsin və ya dizaynerin öz baxışından da asılı olmuşdur.

Qədim dövrlərdə geyimlərin hazırlanması zamanı parçadan daha çox onun üzərində olan bəzək əşyaları diqqət çəkmişdir. Hətta bəzi tarixi mənbələrə nəzər salsaq varlı tacirlərin və fironların öldükləri zaman onlara aid bütün bəzək əşyaları və geyimlərini də özləri ilə dəfn etdiklərini görmək mümkündür. Burada əsas məqsəd sanki bu insanların öldükdən sonra da digər aləmdə də dəbli geyimlərdən istifadə edərək daha gözəl görünmələrini təmin etmək olmuşdur.

Müasir dövrdə də kostyum və geyim gözəl görünüşün əsasını təşkil edir. Bu baxımdan hər bir insanın geyim tərzi bəzən onun daxili aləmindən də xəbər vermiş olur. Hətta bəzi insanların fikirlərinə görə kostym gözəl geyim tərzi və geyimin simvolu da hesab edilə bilir. Texnologiyanın inkişaf etdiyi və yeni tərzlərin meydana

çıxdığı müasir dövrdə də kostyumlara olan tələb və yanaşma da dəyişmişdir. Eyni zamanda geyimə olan tələbin dəyişməsi və başqa sözlə desək tələbin artması ona olan obrazlı ifadəni də dəyişmiş olur. Bu baxımdan kostyumun obrazlı formada dəyişməsi özünü müxtəlif formalarda göstərə bilir ki, buna misal olaraq maskarad və yaxud karnaval kostyumlarını misal göstərmək mümkündür.

Orta əsarlərdən günümüzə qədər olan zaman kəsiyində kostyum ən çox tələb edilən geyim forması olaraq qalmışdır. Əlbətdə ki, buna təsir edən bir çox faktorlar var ki, bunlardan biri də məhz kostyumların daha ağır və ciddi tərz olması ilə bağlıdır. Bü gün müxtəlif geyim butiklərində və məşhur geyim dükanlarında müxtəlif formada müxtəlif dəb firmaları tərəfindən dizayn edilmiş kostyumlara rast gəlmək mümkündür. Bunların hər biri estetik görünüşünə və materiallarına görə bir-birindən fərqlənirlər. Lakin, diqqət edilməli digər bir məqam isə kostyumlarda obrazlılıq və estetik ifadililiyin formalaşdırılmasıdır. Bu baxımdan təzə kostyumun insanların tərbiyəsinə və davranışına təsir edən faktor kimi qiymətləndirilir. Buna əgər biz bədii və ya obrazlı formada yanaşsaq deyə bilərik ki, kostyum fərdlərdə dünya görüşü və fərdi xüsusiyyətləri ortaya qoyan əsas vasitələrdən biridir.

Qeyd olunları nəzərə alaraq, müasir dövrdə də kostyumun əsas geyim tərzi olması və bu tərzə olan tələbatı nəzərə alaraq, kostyumda obrazlı ifadəliliyi formalaşdıran estetik faktorların tətbiq edilməsi onu zənginləşdirən əsas amillərdən biri kimi hesab edilə bilər. Bu baxımdan mövzu araşdırılmaq üçün aktuallığını bu gün də saxlamaqdadır.

**Tədqiqatın predmet və obyekti.** Kostyum və kostyuma təsir edən estetik faktorların tətbiqinin öyrənilməsi tədqiqatın əsas predmetini təşkil edir. Tədqiqatın əsas obyekti kostyumdur.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi kostyumun obrazlı ifadəsini formalaşdıran estetik amillərin tətniqinin araşrırılmasıdır. Qeyd edilən məqsədlərə çatmaq və daha detallı təkliflər vermək üçün tədqiqat aşağıda göstərilən vəzifələri yerinə yetirmişdir:

✓ Kostyumun formalaşmasının tarixi və inkişaf mərhələlərinə nəzər salmaq;

- ✓ XIX əsrdə Azərbaycan geyimlərini araşdırmaq;
- ✓ Müxtəlif dövrlərdə geyim mədəniyyəti və estetikasının tədqiq edilməsi;
- ✓ Bədii mədəniyyətdə kostyumun obrazlı ifadəsini müəyyənləşdirmək;
- ✓ Kostyumda kompozisiya və harmoniya anlayışlarına açıqlıq gətirmək;
- ✓ Müasir dövrdə kostyumda dəb və obrazlı yanaşma:
- ✓ Kostyumun əsas tələblərini müəyyən etmək;
- ✓ Kostyumda estetik xüsusiyyətləri araşdırmaq;
- ✓ Kostyumun kompozisiyasında rəng çalarları və aksessuarların yerini təyin etmək.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində Respublikamızda fəaliyyət göstərən moda evlərində tikilən kostyumların estetik xüsusiyyətlərinə baxılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işinin nəzəri və praktiki məlumatlarından universitetlərin bakalavr səviyyəsində, eyni zamanda müxtəlif orta ixtisas təhsil və peşə təhsili müəssisələrində təhsil alan tələbələr tərəfindən məqalələrin, kurs işi, referat və fərdi işlərin yazılmasında istifadə oluna bilər. Bununla yanaşı, işdə əldə olunan nəticələrdən gələcəkdə müxtəlif dizaynerlər tərəfindən kostyumun hazırlanmasında tətbiq oluna bilər.

**Tədqiqatın informasiya bazası və işlənməsi metodları**. Tədqiqat işinin əsas məlumat mənbəyi kimi müxtəlif alimlər və tədqiqatçılar tərəfindən aparılmış araşdırmalar, internet saytları və kostyuma aid xarici və yerli ədəbiyyatın materiallarından ibarətdir. Tədqiqatda müxtəlif elmi-nəzəri metodlarla yanaşı müşahidə, təhlil, keyfiyyət təhlili kimi üsullardan istifadə olunmuşdur.

**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil və yarımfəsillərdən, nəticə və təkliflər bölməsindən, ədəbiyyat siyahısından ibarətdir.


**Magistrant :** **Tağızadə L.R.**

**Elmi rəhbər:** **s.ü.f.d.Məmmədova L.H.**